Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

25 OKTYABR 2019-cu il

№ 190 (4088)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 9 ■

# AVROPARLAMENTİN «BASESKU QƏRARI» - QARABAĞ MƏSƏLƏSİNDƏ ERMƏNİSTANIN MƏĞLUB DİPLOMATİYASINA DAİR DAHA BİR ETİRAF FAKTI...



■ səh. 8 ■

## Son kadr və struktur islahatları ilə yeni dövr başladı - «toxunulmaz» görünən problemlər və kadrlar gündəmə gətirildi

"...əllər kəsilməlidir" deyən Prezident iş adamlarını hansı qanunsuz ödənişlərdən xilas etdi... ■ səh. 4 ■

Prezident qara yolla maaş alan işçilərə əla tövsiyə verdi... ■ səh. 11 ■

Ramiz Mehdiyevlə bağlı Təhlükəsizlik Şurasında dəyişiklik, radikalların izahı və qanuni əsaslar... ■ səh. 5 ■

Doğru - köhnə təfəkkürlə yeni uğurlar, lap köhnə kadrlarla da yeni uğurlar olmaz ■ səh. 4 ■

Kadr yenilikləri MSK-ya da adladı - seçkilərə yeni ictimai və beynəlxalq yanaşmalar ərəfəsindəyik... ■ səh. 5 ■

Ramiz Mehdiyevin gəlişindən sonra Akademiyanı nə gözləyir... ■ səh. 12 ■

İslahatların daha bir üstünlüyü - yeni dünya böhranına qarşı Azərbaycanın müqaviməti artır... ■ səh. 13 ■

Paşinyanın yeni lovğalığı - "Putin Suriyada Qamışlı barədə qərarı mənə görə verdi"... ■ səh. 6 ■





Prezident Əliyev ölkənin həqiqətən «böyük yarası» sayılan haqsız rəqabətin əsas kökünü açdı... ■ səh. 3 ■

Orta və kiçik sahibkarların ÜDM-dəki roluna görə biz niyə inkişaf etmiş ölkələr səviyyəsində deyilik... ■ səh. 11 ■

Paşinyanın Rusiya ilə yaratdığı «silah-tender» qalmaqalı böyüyür... ■ səh. 7 ■

■ səh. 2 ■ Əli Həsənov Azərbaycanın BMT TŞ-nın qeyri-daimi üzvü seçiləndə Ermənistanın namizədliyi üzərində necə üstünlük qazandığını təhlil etdi...



■ səh. 3 ■ Aydın Quliyev son kadr islahatlarının əvvəlkilərdən çox fərqli məqamlarını araşdırdı



■ səh. 6 ■ Üç mühüm nazirliyin vahid əldə birləşdirilməsinin gələcəyinə baxışlar...



■ səh. 14 ■ İqtisadi blokda bütün təşkilatlar vergi orqanları kimi əlavə 350 milyon manat fayda verə bilsəydi...



■ səh. 10 ■ Fransada antierməni kampaniyası - şəhərlərin qardaşlaşmasının ləğvindən sonra redaksiyaya və kollecə basqınlar...



## Prezident İlham Əliyev akademik Akif Əlizadəni qəbul edib və ona 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də akademik Akif Əlizadəni qəbul edib və ona 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib.

## Prezident İlham Əliyev yüksək ranqlı xarici dövlət rəhbərlərini qəbul edib

Prezident İlham Əliyev oktyabrın 24-də Vyetnam Sosialist Respublikasının vitse-prezidenti Danq Thi Nqok Thinhi, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haeni və Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## İran və Kuba prezidentləri Azərbaycana gəldi

**İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 24-də Azərbaycan Respublikasına səfərə gəlib.**

Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel də Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 24-də Azərbaycana səfərə gəlib.

## Azərbaycan və Ermənistan XİN başçıları Bratislavada görüşəcək

**ATƏT-in hazırkı sədrinin vasitəçiliyi ilə yaxın zamanlarda Bratislavada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçiriləcək.**



"Trend"in məlumatına görə, bunu ATƏT-in hazırkı sədri, Slovakiyanın Xarici və Avropa İşləri naziri Miroslav Layçak deyib.

Onun sözlərinə görə, görüş zamanı Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması perspektivlərini müzakirə edəcəklər.

M.Layçak bildirib ki, Azərbaycan və Ermənistan liderlərinin münaqişənin nizamlanması istiqamətində səylərini yüksək qiymətləndirir: "İl ərzində biz müsbət siqnallar, liderlər və nazirlər səviyyəsində dialoqlar müşahidə etmişik. Eyni zamanda qoşunların təmas xəttində insan itkilərinə səbəb olmuş, narahatlıq doğuran insidentlər də qeydə alınıb. Amma indi vəziyyət, deyəsən stabildir".

Öz növbəsində, ATƏT-in Baş katibi Tomas Qreminger vurğulayıb ki, Minsk Qrupunun həmsədrləri qismində vasitəçilər danışıqlarda fəal iştirakını davam etdirir. Amma ciddi irəliləyiş ilk növbədə dövlət rəhbərlərinin siyasi qərarı sayəsində mümkündür.

## BŞBPİ radikal sosial şəbəkə fəallarının polis haqda daha bir yalanını təkzib etdi

**Bakı şəhər Baş Polis İdarəsi Bakıda qanunsuz aksiyaya cəhdin qarşısının alınmasında iştirak edən bir qrup polis əməkdaşının işdən çıxarılması ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib.**



Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətindən "Trend"ə bildiriblər ki, yayılan məlumatlar yalandır: "Sosial şəbəkələrdə oktyabrın 20-də bir qrup şəxsin Səbail rayonunda qanunsuz aksiya keçirmə cəhdlərinin qarşısını alınarkən xidmətə cəlb olunan polis əməkdaşının daxili işlər orqanlarından öz raportu əsasında xaric olunması ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir".

# Əli Həsənov Azərbaycanın BMT TŞ-nın qeyri-daimi üzvü seçiləndə Ermənistanın namizədliyi üzərində necə üstünlük qazandığını təhlil etdi...

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov sosial şəbəkədə paylaşdığı məqaləsində yazır: "Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsindən 8 il ötür.**



2011-ci il oktyabrın 24-də Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi xalqımızın müasir tarixinə ən əlamətdar və qürur doğuran hadisələrindən biri kimi daxil olmuşdur. Dünyanın nüfuzlu təşkilatının ali orqanında ölkəmizin təmsil olunması prosesi müxtəlif mərhələlərdən və namizədliyini irəli sürmüş digər dövlətlərlə rəqabət şəraitində keçmişdir. Gizli səsvermənin 16-cı mərhələsindən sonra Azərbaycan səs çoxluğu ilə dünyanın 193 dövlətindən 155-nin dəstəyini qazanaraq, 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Təhlükəsizlik Şurasında təmsil edəcək yeni qeyri-daimi üzv seçilmişdir.

Ölkəmizin əldə etdiyi bu tarixi nailiyyət, ilk növbədə Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi ardıcıl, məqsədyönlü və uzaqgörən xarici siyasətin nəticəsi kimi mümkün olmuşdur. Məlumdur ki, qeyri-daimi üzvlərin seçimində seçkiyə qoşulan dövlətlərin beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına verdiyi töhvələr, BMT-nin digər məqsədlərinin reallaşması prosesində yaxından iştirak etmək imkanı, mövcud ölkənin beynəlxalq münasibətlər sistemindəki yeri və rolu kimi mühüm amillər nəzərə alınır. Azərbaycanın göstərilən parametrlərə uyğun və beynəlxalq aləmdə fəal şəkildə dəstəklənən xarici siyasət apardığı onun Təhlükəsizlik Şurasına üzv seçilməsi ilə bir daha sübut edildi.

Erməni lobbisinin və Ermənistanın Azərbaycana qarşı apardığı məkrli informasiya siyasəti şəraitində BMT-nin üzvü olan dövlətlərin əksəriyyətinin birbaşa dəstəyinə nail olmaq, həm də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin yüksək siyasi iradəyə söykəndiyini və qətiyyətli xarakter daşıdığını sübut etdi. Həmin ərəfədə ermənilər Azərbaycana qarşı məkrli və çirkin siyasi kampaniya aparsalar da, mənfur niyyətlərinə nail ola bilmədilər. Ermənistanın da ilkin mərhələdə Təhlükəsizlik Şurası üzvlüyünə öz namizədliyini irəli sürməsinə baxmayaraq, sonradan bu dövlətin diplomatik mübarizədə Azərbaycanla hər hansı bir rəqabət imkanına malik olmadığı üzə çıxdı və bunun etirafı olaraq namizədliyini geri götürmək məcburiyyətində qaldı.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinin tarixi-siyasi əhəmiyyəti həm də ondan ibarətdir ki, bu hadisədən sonra ölkəmizin milli maraqlarının qlobal səviyyədə təmin edilməsi istiqamətində fəal səylər göstərilmiş, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü Şuranın iclaslarında müzakirə olunmuş və real həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdır. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrliyi müddətində təşkilatın 13 açıq və 16 qapalı iclası keçirilmişdir. Bununla yanaşı, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət, münaqişələr zamanı müharibə və insanlığa qarşı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyinə xüsusi diqqət yetirilmiş, bu məsələlər Şuranın qəbul etdiyi sənədlərdə öz əksini tapmışdır".

# Elmar Məmmədyarov Azərbaycanın Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemindəki rolunu gücləndirə biləcəyinə inam bəyanatı yaydı

**Bəyanatda deyilir:**

İnanırıq ki, bu Zirvə və sədrliyimiz boyunca sizin dəstəyinizlə Hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu gücləndirə biləcəyik. "Trend"in məlumatına görə, bunu Xarici işlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının XVIII Zirvə toplantısının Nazirlərin Hazırlıq Toplantısında yekun nitqində deyib.

Bu iki gün ərzində məhsuldar müzakirələr aparıldığını vurğulayan nazir qeyd edib ki, interaktiv müzakirələr zamanı maraqlı çıxışlar dinlənildi və bu müzakirələr bir daha əyani şəkildə göstərdi ki, Qoşulmama Hərəkatı beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rol oynayır:




"Sizinlə razılaşdırdığımız hərtərəfli sənədlərdə bu baxımdan bir neçə vacib məqam yer alır.

Bu gün çoxtərəflilik heç vaxt olmadığı qədər vacibdir və bu dəyərli çərçivəni qorumaq bizim məsuliyyətimizdir. Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra ikinci ən böyük beynəlxalq siyasi təşkilat olaraq, çoxtərəfli əməkdaşlığın əsas hərəkətverici qüvvələrindən biridir. Bu hörmətli Hərəkatın sədrliyini üzərimizə götürməkdən və onun qarşıdan gələn uğurlarına töhfəmizi verməkdən qürur duyuruq. İnanırıq ki, bu Zirvə və sədrliyimiz boyunca sizin dəstəyinizlə Hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu gücləndirə biləcəyik. Bundan əlavə, inanırıq ki, sədrliyimiz Qoşulmama Hərəkatının üzvü olmayanlarla əməkdaşlıq çərçivəsi qurmağa kömək edəcəkdir.

Xanımlar və cənablar, bunununla da, nəticə sənədlərinə verdiyiniz dəyərli töhfələrə və interaktiv debatda fəal iştirakınıza görə bir daha hamınıza təşəkkür edirəm. Ümid edirəm ki, Bakı Zirvəsi tarixdə ən uğurlu zirvə görüşlərindən biri kimi həmişə yadda qalacaqdır".

# Prezident Əliyev ölkənin həqiqətən "böyük yarası" sayılan haqsız rəqabətin əsas kökünü açdı...

**"Haqsız rəqabət, bu da bizim üçün böyük yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki, biznes maraqları var. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satsınlar, ya da ki, çıxıb getsinlər".**



## *Aydın Hüseynov: "Haqsız rəqabətin olması sahibkarlığın inkişafını ləngidən amillərdən biridir"*

Bunu Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edən zaman deyib. Ölkə başçısının fikrincə, belə hallara yol vermək olmaz: "Mən bilirəm, sizə nazir kimi, xüsusilə Vergilər naziri kimi, bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmisiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək. Ona görə sizin qarşınızda çox böyük vəzifələr dayanır. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafı bizim üçün hazırda əsas prioritet məsələdir. Dediyim kimi, bu, imkan verəcək ki, biz sosial sahəyə daha böyük vəsait ayıraq".

Həqiqətən bəzi məmurların biznesi himayə etməsi sahibkarlıq sektorunda haqsız rəqabətə yol açırdı. Bu da biznesin inkişafını əngəlləyir, rəqabətin qarşısını alırdı. Prezident bu problemin kökünü açmaqla çox vacib məsələyə toxundu. Belə görünür ki, bundan sonra haqsız rəqabətə qarşı daha sərt mübarizə aparılacaq.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, haqsız rəqabətə qarşı mübarizə gücləndiriləcək: "İslahatların əsas hədəflərindən biri də dövlət qurumlarının fəaliyyətinin yeni dövrə, çağırışlara uyğun qurulmasıdır. Yeni çağırışlar nədir? Yeni hədəflər bürokratik idarəetmədən uzaqlaşmaqdır, şəffaflıqdır, köhnə məmurçuluqdan əl çəkməkdir, vətəndaşa xidmət etməkdir, yeniliyə uyğunlaşmaqdır. Təəssüf ki, dövlət orqanlarında olan bəzi vəzifəli şəxslər iqtisadi və sosail sahədə bir sıra xoşagəlməz halların baş verməsinə səbəb olurlar, islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə hökumətin işinə əngəl törətmək istəyirlər.

## *"Belə hallara qarşı mübarizə gücləndiriləcək"*

İslahatlara meylli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar. Ona görə də köhnə təfəkkürə malik bu adamlarla sürətlənən islahatlar kursunda bərabər addımlamaq mümkün deyil, artıq yeni komandada onlarla davam edilə bilməz. Dövlər başçısı da konkret və qəti xəbərdarlıq etdi, bütün dövlət məmurları artıq dərinləşdirilən bu islahatların ruhuna uyğun işləməlidirlər. Prezident İlham Əliyev Mikayıl Cabbarovla görüşündə iqtisadiyyatın müəyyən sahələrində mənfi meyllərin olduğunu qeyd etdi.

O cümlədən, haqsız rəqabətin olmasını və bunun müəyyən dərəcədə iqtisadiyyata mənfi təsiri ilə bağlı fikirlərini bildirdi. Əlbəttə, haqsız rəqabətin olması sahibkarlığın inkişafını ləngidən amillərdən biridir. Ona görə də ölkə başçısı belə hallarla mübarizədə konkret tapşırıqlar verdi. Əminəm ki, bu sahədə olan problemlər həll ediləcək. Bütün bunlar son nəticədə ölkə iqtisadiyyatının artımına gətirib çıxaracaq".

***Vidadi ORDAHALLI***

# Aydın Quliyev son kadr islahatlarının əvvəlkilərdən çox fərqli məqamlarını araşdırdı

**Prezident İlham Əliyevin yeni kadr islahatları Azərbaycanın postneft dövründə daha dərin və sistemli xaraktet alan ümumi islahatların davamı və tərkib hissəsidir. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.**



## *"Kadr islahatları ölkənin qarşısındakı məsələlərin səmərəli həll olunması çağırışlarının məntiqi və obyektiv nəticəsidir"*

Onun sözlərinə görə, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının özü səmərəli idarəçiliyin və kadrların düşünülmüş şəkildə dəyişdirilməsinin nəticəsi olmaqla bərabər, həm də keyfiyyətcə yeni kadr islahatlarının aparılmasını bir tələb kimi qarşıya qoyur: "Bu mənada, Prezidentin ən yeni kadr islahatları və davam edən inkişaf meylləri birbirini tamamlayan əhəmiyyətli sosial təzahürdür. Kadr islahatları ölkənin qarşısındakı iqtisadi, sosial, hərbi, mədəni və humanitar məsələlərin daha səmərəli həll olunması çağırışlarının məntiqi və obyektiv nəticəsidir. Son kadr islahatları cəmiyyətdə daha fəal və həssas rezonans doğurmaqla ölkənin inkişafında yeni mərhələnin başlandığını xarakterizə etməyə imkan verir. Konkret desək, budəfəki islahatlar dalğası əhatə dairəsinə və daha dərin keyfiyyət yenilikləri doğurmaq gücünə görə fərqlənir. Kadr islahatlarında bir neçə metodik yenilik bu prosesə olan ictimai və beynəlxalq marağı daha da artırır. Bu həm fəxri həyata göndərilən, həm də yeni təyinat alan kadrlara Prezidentin yanaşma üsullarında özünü göstərir. İslahatlarda metodik yenilik kadrlarla təyinatqabağı söhbətin cəmiyyət üçün açıq aparılması və hər kəsin qarşısında cavabdeh olduğu yeni sahənin vəzifələrini dəqiq müəyyən etməkdir. Prezidentin söhbətlərinin televiziya ilə nümayiş etdirilməsi kadrların məsuliyyət hissini ikiqat artıran əhəmiyyətli motiv kimi diqqəti cəlb edir".

A.Quliyev bildirib ki, Prezident kimi, hara və nə üçün təyin etdiyi barədə cəmiyyətə çox aydın mesajlar vermək üsulunu tətbiq edir və bu, kadr islahatlarında Prezidentlə cəmiyyət arasında özünəməxsus anlaşma mühitinin yaranmasında çox vacib rol oynaya bilər: "Kadr islahatları dövlətçilik qarşısında xidmətləri olmuş şəxslərin zəhmətinin cəmiyyətin gözləri qarşısında qiymətləndirilməsi və gənclərə əlverişli karyera yüksəliş imkanları açmaq baxımından da əhəmiyyətlidir. Bir daha dövlət başçısı xidməti olanları dəyərləndirməkdə və gənclərə meydan açmaqda nə qədər ardıcıl və prinsipial olduğunu nümayiş etdirir".

Ekspertin sözlərinə görə, Prezidentin kadr islahatlarının yenilik kimi xarakterizə edilə biləcək daha bir xüsusiyyəti ilk dəfə kadr və struktur islahatlarının eyni anda və fasiləsiz olaraq həyata keçirilməsidir: "Kadr islahatlarının cəmiyyətin nəzərində indiyədək az qala "toxunulmazlıq" statusu almış bəzi problemlər barəsində kəskin islahedici bəyanatlarla müşayiət olunması bu prosesə ictimai marağı daha da artırır. Yeni kadrların təyinatı fonunda korrupsioner, inhisarçı və zəli kimi qan soran məmurlara xəbərdarlıq edilməsi islahatlara ictimai inamı artıran faktorlardandır. Prezident kadr islahatlarını bütün cəmiyyətlə birlikdə, onun dəstəyi və anlaşıqlı münasibətilə həyata keçirir.

Kadr islahatlarında əsas hədəflərin sabit və səmərəli inkişaf, qeyri-neft sektorunun üstün inkişafı, əhali məmnunluğu, yüksək rifah olması özünü inandırıcı şəkildə göstərir. Prezident kadr dəyişikliklərinə Azərbaycanın daha uğurlu sabahına ən etibarlı keçid vasitəsi kimi baxdığını bariz şəkildə nümayiş etdirə bildi".

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edərkən ona sahibkarların hüquqlarının qorunması və onların məmurlar tərəfindən incidilməməsilə bağlı xüsusi tapşırıq verib:**

# "...əllər kəsilməlidir" deyən Prezident iş adamlarını hansı qanunsuz ödənişlərdən xilas etdi...



## *Elşən Həsənov: "Bir çox rayonda həmin abadlıq işlərini sahibkarlara gördürürlər"*

"Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumdaxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki, belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyli, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun".

Dövlət başçısı bildirib ki, sahibkarlara yönəlmiş o çirkin əllər gərək kəsilsin: "Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə. Əgər indi kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışırlar, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcək.

Hüquq-mühafizə orqanları artıq məndən çox ciddi tapşırıq alıblar və siz nazir kimi çalışmalısınız ki, belə hallara yol verilməsin, əgər yol verilərsə, dərhal məni məlumatlandırın. Belə yaramaz məmurlara qarşı ən ciddi sanksiyalar və tədbirlər görüləcək. Ona görə biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz".

Prezidentin verdiyi tapşırıqda sahibkarlardan alınan qanunsuz ödənişlərə son qoyulması tapşırılıb. Ölkə başçısı "vergidən başqa heç bir ödəniş ola bilməz" deməklə sahibkarları hansı qanunsuz ödənişlərdən xilas etmiş oldu?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısı olduqca ciddi bir məsələyə toxunub: "Kiçik və orta sahibkarlığın inkişafı dövlətin iqtisadi qüdrətini artıran başlıca amildir. Ancaq təəssüflər olsun ki, bəzi məmurlar buna doğrudan da maneçilik törədirlər. Prezident doğru olaraq qeyd etdi ki, xüsusilə də regionlarda bu hal daha geniş vüsət alıb. Mən bir neçə faktı sizin diqqətinizə çatdırmaq istərdim. Bilirsiniz ki, rayonların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət büdcəsi və ya Prezidentin ehtiyat fondundan vəsait ayrılır. Ancaq bir çox rayonda həmin abadlıq işlərini sahibkarlara gördürürlər. Sahibkar niyə bunu etməlidir? İş adamı vergi ödəyirsə, ordan da büdcə formalaşır. Büdcədən də rayonun abadlaşması üçün vəsait ayrılır. İlk növbədə bu məsələyə son qoyulmalıdır. Sonra Rusiyada biznesi olan hər hansı bir soydaşımız oradakı biznesinin bir hissəsini bura köçürmək istəyəndə onları elə sıxırlar ki, didərgin düşürlər. Bu yaxınlarda Rusiyadan olan tanıdığım iş adamı gəlib rayonlardan birində istirahət mərkəzi açmaq istəyirdi. Bütün sənədləri qaydasındaydı, hətta aldığı torpağın çıxarışı vardı. Ondan o qədər qanunsuz ödəmələr tələb etdilər ki, axırı işi yarımçıq qoyub getdi. Sahibkarlardan onların inşa etdirmək istədiyi hansısa tikiliyə sərəncam vermək üçün də rüşvət tələb edilir. Təbii ki, bütün sadalanan amillərin nəticədə ziyanı ölkənin iqtisadiyyatına dəyir. Ölkə başçısı deyir ki, hüquq-mühafizə orqanlarına bu cür hallarla bağlı ciddi mübarizə aparmaq göstərişi verilib. Bu məsələdə onların da üzərinə ciddi məsuliyyət düşür. Belə məmurlarla bağlı ciddi ölçü götürülsə, sahibkarların incidilməsinə son qoyular".

*"Belə məmurlarla bağlı ciddi ölçü götürülsə, sahibkarların incidilməsinə son qoyular"*

***Məhəmmədəli QƏRİBLİ***

---

**Müasir dövrün tələblərinə cavab verməyən kadrlar artıq gənc mütəxəssislərlə əvəz olunmalıdır. Dövrün tələbinə uyğun olaraq kadrlar beynəlxalq təcrübəyə malik olmalıdırlar. Elə bu səbəbdən də son zamanlar ölkədə kadr islahatlarının aparılmasının şahidi oluruq.**

# Doğru - köhnə təfəkkürlə yeni uğurlar, lap köhnə kadrlarla da yeni uğurlar olmaz



## *Naqif Həmzəyev: "Yeni nəsil yaşlı nəsillə müqayisədə müasir dövrün tələblərinə daha tez uyğunlaşır, elmi-texniki tərəqqinin nailiyyətlərini..."*

Oktyabrın 23-də Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edərkən kadr islahatları məsələsinə də toxunub.

Prezident çıxışı zamanı qeyd edib ki, islahatlara alternativ yoxdur: "Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən, kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər".

Həmsöhbətlərimiz də hesab edirlər ki, iqtisadi, sosial və digər sahələrdə müsbət nəticənin əldə edilməsi üçün beynəlxalq təcrübəyə malik, gənc kadrlara daha çox üstünlük verilməlidir.

Millət vəkili Naqif Həmzəyev bildirdi ki, ölkənin uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradır: "Bu tərəqqinin geniş vüsət almasında kadr islahatlarının da rolu böyükdür. Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyi sistemi daim təkmilləşdirilir. Bu istiqamətdə düşünülmüş, ölçülüb-biçilmiş addımlar atılmaqdadır və bu zaman, ilk növbədə, xalqın və dövlətin maraqları, milli mənafelər nəzərə alınır.

Xatırladım ki, Prezident İlham Əliyevin oktyabrın 21-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edərkən söylədiyi fikirlər də təqdirəlayiqdir".

Millət vəkilinin fikrincə, dövlət idarəetmə sistemində son dövrlər həyata keçirilən struktur islahatları çərçivəsində gənc kadrlara rəhbər korpusda yüksək etimadın göstərilməsi müsbət haldır. Bu, dövlət rəhbərliyinin ölkədə müxtəlif sferaların inkişafında gənclərə böyük etimad göstərməsinin təzahürüdür: "Dövlət idarəçiliyində gənclərin irəli çəkilməsi ənənəsi hər zaman mövcud olub. Əslində, gənclərin indiki mərhələdə rəhbər vəzifələrə irəli çəkilməsi üçün uzun illərdir baza formalaşdırılıb, uğurlu siyasət həyata keçirilib. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsidir ki, artıq ölkədə bütün sahələrdə gənclərdən ibarət peşəkar kadr potensialı formalaşıb. Hazırda dövlət idarəetməsinin müxtəlif sferalarında bu potensialdan səmərəli istifadə etmək imkanları yaranıb.

Gənc kadrlara etimadın artması ölkə gəncliyinin stimullaşdırılması baxımından da əhəmiyyətlidir. Gənclər mütəmadi olaraq yeniliklərə can atır, köhnə stereotiplərdən uzaqlaşmağa, yeni yanaşmalara üstünlük verməyə cəhd göstərirlər. Bu isə əlbəttə ki, ümumilikdə, ölkənin, cəmiyyətin xeyrinədir. Digər tərəfdən, yeni nəsil yaşlı nəsillə müqayisədə müasir dövrün tələblərinə daha tez uyğunlaşır, elmi-texniki tərəqqinin nailiyyətlərini daha tez mənimsəyir, onun tətbiqinə üstünlük verir. Bu baxımdan yaşlı nəslin təcrübəsi ilə gəncliyin enerjisinin birlikdə tətbiqi idarəçilik sistemində daha çox səmərə verə bilər".

*"Gənclər mütəmadi olaraq yeniliklərə can atır, köhnə stereotiplərdən uzaqlaşmağa, yeni yanaşmalara üstünlük verməyə cəhd göstərirlər"*

***Günel CƏLİLOVA***

# Ramiz Mehdiyevlə bağlı Təhlükəsizlik Şurasında dəyişiklik, radikalların izahı və qanuni əsaslar...

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli, 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.**



Fərmanda deyilir: "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli, 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi"nə "Azərbaycan Respublikasının Daxili işlər naziri" sözlərindən sonra "Ramiz Ənvər oğlu Mehdiyev" sözləri əlavə edilsin".

Radikal müxalif dairələr bu fərmanı öz düşüncələrinə uyğun şəkildə yozmağa başlayıblar. Onlar iddia edirlər ki, heç bir mühüm əhəmiyyətli vəzifəsi olmadığı halda, R.Mehdiyevin Təhlükəsizlik Şurasının tərkibinə daxil edilməsi ona xüsusi status verilməsi kimi izah edilə bilər. Hətta bununla Konstitusiyanın normalarının pozulduğunu iddia edənlər də var. Hər halda, ölkə başçısı qanunvericiliklə uzlaşmayan hər hansı fərmana imza atmaz. Onda isə radikalların bu yöndə olan "əsaslandırması" ilə bağlı nə demək olar?

***Aydın Mirzəzadə:** "Prezident kimi hansı vəzifə sahibini ora əlavə etməkdə sərbəst hüquqa malikdir"*

***Fərəc Quliyev:** "Bəyəm Milli Elmlər Akademiyasının sədri olmaq kiçik vəzifədir?"*

Millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, görünür, bunu deyənlər Konstitusiyanı yaxşı öyrənməyiblər: "Ana qanunda yazılır ki, Azərbaycan Prezidenti Təhlükəsizlik Şurasının üzvlərini təsdiq edir. Bu baxımdan da Prezident kimi hansı vəzifə sahibini ora əlavə etməkdə sərbəst hüquqa malikdir. Burada Konstitusiya ilə heç bir uyğunsuzluq görmürəm. R.Mehdiyev zəngin idarəetmə təcrübəsinə malikdir. Onun biliyinə, təcrübəsinə və məsləhətlərinə hər zaman ehtiyac var. O ki, qaldı ölkənin taleyüklü məsələlərinə, burda da R.Mehdiyevin təcrübəsindən istifadə olunacaq. Məhz bunu nəzərə alan cənab Prezident onun adını Təhlükəsizlik Şurasının tərkibinə daxil edib".

Digər millət vəkili Fərəc Quliyev də "Bakı-Xəbər"ə açıqlamasında Ramiz Mehdiyevin Təhlükəsizlik Şurasının tərkibinə daxil edilməsində heç bir qanunsuzluq görmədiyini dedi: "Prezidentin səlahiyyətinə aid olan məsələdir. Zəruri sayılıb ki, R.Mehdiyevin adını ora daxil edib.

**Qaldı ali vəzifə daşımağa, bəyəm Milli Elmlər Akademiyasının sədri olmaq kiçik vəzifədir? Prezidentin imzaladığı fərmana hər kəs hörmət etməlidir. Zəngin dövlətçilik təcrübəsi olan adamın adını ora daxil etməklə Prezident heç bir qanunsuzluq etməyib. Məsuliyyət də onun üzərindədir, hüquq da".**

***Məhəmmədəli QƏRİBLİ***

# Kadr yenilikləri MSK-ya da adladı - seçkilərə yeni ictimai və beynəlxalq yanaşmalar ərəfəsindəyik...

**Nəinki ölkə ictimaiyyətinin, eləcə də dünya birliyinin diqqət mərkəzində olan Mərkəzi Seçki Komissiyasının (MSK) fəaliyyəti davamlı olaraq müzakirə olunur. Bildiyimiz kimi, hazırda ölkəmizdə ciddi kadr və struktur dəyişiklikləri baş verir, bu istiqamətdə islahatlar həyata keçirilir.**



Bu islahatlar MSK-da da müşahidə edilməyə başlayıb. Belə ki, Rövzət Qasımov MSK sədrinin müavini seçilib.

Qeyd edək ki, R.Qasımov 21 ildir MSK-da çalışır. 1998-2011-ci illərdə Beynəlxalq əlaqələr şöbəsinin, 2011-ci ildən isə MSK Katibliyinin müdiri olub. Onun MSK-nın beynəlxalq əlaqələrinin qurulmasında müstəsna xidmətləri olduğu vurğulanır.

MSK-da baş verən kadr dəyişiklikləri sözsüz ki, diqqəti çəkir. Məlumdur ki, indiyə qədər Azərbaycanda keçirilən seçkilərin nəticələri ilə bağlı bəzi beynəlxalq təşkilatların, eləcə də radikal müxalifətin qərəzli fikirlərinin şahidi olmuşuq. Onlar əsassız olaraq MSK-nın seçkini saxtalaşdırdığını və s. iddia ediblər. Heç şübhəsiz ki, bunlar həqiqəti əks etdirməyib. Onu da vurğulayaq ki, qarşıdan ölkəmiz üçün çox mühüm olan bələdiyyə seçkiləri gəlir və bu proses zamanı da MSK-nın fəaliyyəti diqqət mərkəzində olacaq.

MSK-da baş verən kadr dəyişiklikləri növbəti seçkilərin beynəlxalq aləmdə və ölkə daxilində imicində və tanınmasında nə kimi rol oynayacaq?

***Məhərrəm Zülfüqarlı:** "MSK-da başlayan kadr islahatları Azərbaycanda keçirilən seçki prosesləri ilə bağlı qərəzli fikirlər bildirən beynəlxalq təşkilatların və bəzi daxili qüvvələrin..."*

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİA) Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı MSK-da baş verən kadr dəyişikliklərini şərh edərkən "Bakı-Xəbər"ə bildirdi ki, MSK-da bu prosesin başlaması gələcəkdə ölkəmizdə keçirilən seçkilərin beynəlxalq aləmdə və ölkə daxilində müsbət imicdə tanınmasında, qəbul edilməsində mühüm rol oynayacaq. R.Qasımovun MSK sədrinin müavini vəzifəsinə seçilməsini uğurlu bir kadrın bu prosesə cəlb edilməsi kimi qiymətləndirən M.Zülfüqarlı hesab edir ki, yeni sədr müavininin beynəlxalq aləmlə əlaqələri çox möhkəmdir. M.Zülfüqarlının sözlərinə görə, onun bu vəzifəyə seçilməsi seçkilərin obyektiv, qərəzdən uzaq qiymətləndirilməsinə səbəb olacaq. "Mən Rövzət müəllimi uzun illərdir tanıyıram, biz paralel iş aparırıq. Bilirsiniz ki, bir neçə ildir Azərbaycanda

*"Elə beynəlxalq qurumlar var ki, həmişə Azərbaycana qarşı qərəzli bəyanatlar verir, seçkilərin nəticələrinə qeyri-obyektiv yanaşırlar"*

Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının Seçki Qərargahına rəhbərlik edirəm. Ona görə də bizim MSK ilə birbaşa əlaqələrimiz olur. Hər hansı bir məsələ baş verəndə MSK-ya müraciət edirik və məsələ öz həllini tapır. Hesab edirəm ki, R.Qasımovun bu vəzifəyə seçilməsi uğurlu kadr seçimidir. O, əvvəllər MSK-nın beynəlxalq şöbəsinə rəhbərlik edib, sonra aparat rəhbəri olub. Rövzət müəllim bu sahədə peşəkar, təcrübəli kadrdır. Belə bir kadrın belə yüksək vəzifəyə seçilməsi MSK-nın işini daha da gücləndirəcək. Gənc kadrdır və işləmək üçün böyük enerjisi var. R.Qasımov MSK-nın beynəlxalq şöbəsinin müdiri vəzifəsində işləyərkən beynəlxalq təşkilatlarla işi əlaqələndirirdi. Bilirsiniz ki, elə beynəlxalq qurumlar var ki, həmişə Azərbaycana qarşı qərəzli bəyanatlar verir, seçkilərin nəticələrinə qeyri-obyektiv yanaşırlar. Onlardan biri də ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosudur. Mən özüm şəxsən həmişə onların qapalı iclaslarında iştirak edirəm. Bu işi bilən adam kimi R.Qasımov həmin beynəlxalq qurumlarla yeni münasibətlərin qurulmasında mühüm rol oynaya bilər. Çünki o bu işi yaxşı bilir. Ümumiyyətlə, MSK-da başlayan kadr islahatları Azərbaycanda keçirilən seçki prosesləri ilə bağlı qərəzli fikirlər bildirən beynəlxalq təşkilatların və bəzi daxili qüvvələrin bundan sonra keçiriləcək seçkilərin nəticəsini tanımasına, obyektiv qiymətləndirməsinə səbəb olacaq. Bu qurumda başlanan kadr islahatlarının nəticəsi müsbət qiymətləndirilir".

M.Zülfüqarlı hesab edir ki, qeyri-hökumət təşkilatları da öz fəaliyyətləri ilə hər zaman MSK-nın fəaliyyətinə dəstək verəcəklər. Onun fikrincə, kadr dəyişiklikləri MSK-nın keçirdiyi seçkilərin beynəlxalq imicinə də müsbət təsir göstərəcək.

***İradə SARIYEVA***

# Üç mühüm nazirliyin vahid əldə birləşdirilməsinin gələcəyinə baxışlar...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" Fərman imzalayıb.**



Nəticədə Vergilər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilib. Fərmanla İqtisadiyyat Nazirliyinin yeni strukturu təsdiq edilib.

İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan dövlət orqanlarının yeni əsasnamələri təsdiq edilənədək onlar öz fəaliyyətlərini mövcud əsasnamələri əsasında davam etdirəcəklər.

Prezidentin sərəncamı ilə Mikayıl Cabbarov İqtisadiyyat naziri təyin olunub. Bu münasibətlə onu qəbul edən Prezident kifayət qədər ciddi fikirlər səsləndirib: "Mən sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edirəm. Bu, çox məsuliyyətli vəzifədir. Əlbəttə, Azərbaycan iqtisadiyyatının bundan sonra qeyri-neft sektoru hesabına inkişafı bizim əsas prioritetimizdir. Bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. İndiki iqtisadi artım templəri məni qane etmir. Düzdür, kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu, çox müsbət hallardır. Ancaq biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün bundan sonra da çox ciddi islahatlar aparılmalıdır".

## *Rasim Quliyev: "Cənab Prezident xalqla birbaşa təmasda olanda və müxtəlif formatlarda olan çıxışlarında verdiyi sözlərin ardıcıl icrası həyata keçirilib"*

Üç mühüm qurumun bir əldə birləşdirilməsi bizə hansı yenilikləri vəd edə bilər?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev qəzetimizə açıqlamasında bildirdi ki, aparılan islahatların möhkəm bünövrəsi var və bu təsadüfən meydana gəlməyib: "Cənab Prezident sonuncu dəfə keçirilən ölkə başçısı seçkilərindən sonra Milli Məclisdəki andiçmə mərasimində geniş bir nitqlə çıxış etdi. Həmin nitqində ölkə başçısı keçən dönəmin təhlilini verdi və gələcək prioritetlərdən söz açdı. Ölkə başçısı məhz həmin çıxışda bizi gözləyən inqilabi islahatların anonsunu verdi. Cənab Prezident xalqla birbaşa təmasda olanda və müxtəlif formatlarda olan çıxışlarında verdiyi sözlərin ardıcıl icrası həyata keçirilib. Bu bir daha göstərir ki, ölkə başçısı planlı və düşünülmüş şəkildə öz siyasətini yürüdür. Bunun da nəticəsi bizim gözümüzün önündədir. Təbii ki, qarşıda ölkənin daha da güclü inkişaf etdirilməsi durur. Bunun üçün mütləq islahatlar lazımdır. Biz bunu bütün sahələrdə görürük. Çox sevindirici haldır ki, islahatlar mərhələli şəkildə aparılır. Bir neçə nazirliyin və qurumun vahid əldə cəmləşməsi də zərurətdən irəli gəlib. Bu, idarəetmənin güclənməsinə, vahid mərkəzdən yönləndirilməsinə səbəb olacaq. Biz görürük ki, həyata keçirilən islahatlara həm də cəmiyyətin böyük dəstəyi var. İdarəetmənin optimallaşmasına səbəb olan bu qərardan biz yalnız müsbət nəticələr gözləyə bilərik. Biz əvvəl də belə addımların atıldığına şahidlik etmişik. Bir-birini təkrarlayan qurumların ləğvi və ya vahid əldə birləşməsi yalnız müsbət nəticələrə səbəb olub. Sonuncu addımlar da bizim sosial inkişafımız və rifahımızın yüksəlməsi üçündür. Əminəm ki, struktur islahatları ilə kadr islahatlarının paralel aparılması daha çox yenilik, çeviklik və müsbət dəyişikliyə gətirib çıxaracaq. Biz "Resurs" Analitik İnformasiya Mərkəzi olaraq bu islahatların müəyyən sosial qruplarda doğurduğu reaksiyaları analiz etmişik. Maraqlı nəticələr ortaya çıxıb. Atılan addımlar əhali arasında yüksək inama səbəb olub".

> *"İdarəetmənin optimallaşmasına səbəb olan bu qərardan biz yalnız müsbət nəticələr gözləyə bilərik"*

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın yeni lovğalığı - "Putin Suriyada Qamışlı barədə qərarı mənə görə verdi"...

**Məlum olduğu kimi, Rusiya və Türkiyə prezidentlərinin görüşündən sonra Suriyanın şimalındakı hərbi əməliyyatlar zonasında ortaq Rusiya-Türkiyə nəzarətinin başlaması barədə qətnamə qəbul edilib.**



Erməni mediasında yayılan məlumata görə, guya Paşinyanın Putindən xahiş etməsindən sonra Qamışlı şəhərinin statusu ayrıca müəyyənləşdirilib və həmin şəhərə birgə nəzarət həyata keçirilməyəcək. Bu səbəbdən hazırda Suriya ordusu şəhərə tam nəzarəti həyata keçirir. Oktyabrın 12-də Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı apararaq Suriyanın şimalındakı vəziyyəti müzakirə edib. Sonra Paşinyan öz "Facebook" səhifəsində Suriyanın erməni icmasının təhlükəsizliyi üçün vacib olan məsələdə Putinə müraciət etdiyini açıqlayıb. Paşinyan yazıb ki, "RF Prezidentinə çevik cavabına görə minnətdaram".

Bir sözlə, Paşinyan bunu öz adına yazmaq istəyir. Hərçənd, erməni mətbuatı buna şübhə ilə yanaşır. Qeyd olunur ki, Paşinyanın onlardan istəyi doğrudanmı Qamışlı ilə bağlı idi?

Qeyd edək ki, Qamışlı təxminən 500 erməni ailəsi də daxil olmaqla, 200 min nəfər əhalisi olan və Hələbdən sonra Suriyada ermənilərin ən çox məskunlaşdığı bir şəhərdir. Ermənilərlə yanaşı, şəhərdə assuriyalılar, yəhudilər və kürdlər də yaşayırlar.

Erməni mətbuatı bunu həm də onunla əlaqələndirir ki, Qamışlı erməniləri Türkiyənin Suriyaya müdaxiləsindən dərhal sonra şəhəri tərk etmək niyyətində olmadıqlarını bildiriblər. Erməni icmasının nümayəndəsi Xaçik Melkonyan bildirib ki, Suriyanın şimal-şərqindəki türk nəzarət zonasında olan erməni əhalisi indi təhlükədən uzaqdır.

Bütün hallarda, sözügedən məsələ ilə bağlı Paşinyanın səsləndirdiyi iddia nə dərəcədə reallığa uyğundur? Doğrudanmı Putin məhz Paşinyanın xahişinə görə bu addımı atıb?

## *Məhəmməd Əsədullazadə: "İlk əvvəldən Türkiyə Qamışlı şəhərində antiterror əməliyyatı keçirməyəcəyini qeyd edib"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bunu istisna etdi: "Suriya münaqişəsi regionda ciddi siyasi-iqtisadi və hərbi dəyişikliklərə gətirdi. Burada rol alan ölkələr arasında rəqabət daha da ağır fəsadlara gətirməklə yanaşı, regional münaqişə münasibətdə beynəlxalq konyukturanın dəyişməsinə səbəb olub. Rusiya və ABŞ arasında gedən münaqişə bilavasitə Rusiyanın tam üstünlüyünə gətirsə də, Rusiya burada Türkiyənin aktiv fəaliyyətindən də asılıdır. Çünki Türkiyəsiz Suriya münaqişəsinin həlli mümkün deyil. Hazırda Türkiyə Suriyada əsas söz sahiblərindən biridir. Apardığı hərbi əməliyyatlarla öz mövqeyini gücləndirir. Türkiyə ilə ABŞ arasında imzalanan 13 maddəlik müqavilədən sonra eyni maddəlik plan Rusiya ilə bağlandı. Bu da Türkiyənin mövqeyini daha da gücləndirdi. Qeyd edim ki, Tükiyə ilə Rusiya arasında bağlanın müqaviləyə əsasən, Qamışlı şəhəri rejim qüvvələrinin nəzarətində olacaq.

İlk əvvəldən Türkiyə Qamışlı şəhərində antiterror əməliyyatı keçirməyəcəyini qeyd edib. Burada az sayda yaşayan ermənilərə görə Türkiyənin əməliyyat keçirməməsi barədə deyilənlər cəfəng fikirlərdir. Ankara heç vaxt bir ovuc erməniyə görə öz milli təhlükəsizliyindən vaz keçməz. Necə olur ki, Türkiyə ABŞ kimi super ölkə ilə qarşı-qarşıya gəlir, amma bir Paşinyanın zənginə görə Moskvanın sözü ilə Qamışlıya girmir, yaxud da Paşinyanın zənginə görə rus-türk patrul nəzarəti Qamışlıya nəzarət etmir? Bu cür qeyri-real fikirləri ancaq ermənilər dövriyyəyə buraxa bilər. Hesab edirəm ki, Qamışlıda terror təhlükəsi olmadığı üçün Türkiyə bu addımı atıb".

> *"Necə olur ki, Türkiyə ABŞ kimi super ölkə ilə qarşı-qarşıya gəlir, amma bir Paşinyanın zənginə görə..."*

***Vidadi ORDAHALLI***

**Baş nazir Nikol Paşinyanın bütün cəhdlərinə baxmayaraq, İrəvan və Moskva arasında münasibətlər sürətlə pisləşmyə doğru gedir. Belə görünür ki, Paşinyanın istənilən addımlarına baxmayaraq, Moskva ona etimad etmir və Ermənistanın indiki baş naziri ilə işləmək niyyətində deyil.**

# Paşinyanın Rusiya ilə yaratdığı "silah-tender" qalmaqalı böyüyür...

Ermənistan mediası yazır ki, belə bir vaxtda iki ölkə arasında yeni silah qalmaqalı Kremlin Paşinyana qarşı mövqeyinin daha da sərtləşməsi ilə müşayiət olunacaq.

Xatırladaq ki, Rusiya ORSIS şirkətinin iştirak etdiyi silah tədarükü tenderinin pozulması ilə bağlı Ermənistana etiraz notası ünvanlayıb. Rusiyanın sənaye və ticarət nazirinin müavini Oleq Ryazantsev tərəfindən Ermənistanın müdafiə naziri David Tonoyana ünvanlanan notada vəziyyətin nizama salınması istənilir. ORSIS şirkətinin nümayəndəsi "RİA Novosti"yə bildirib ki, onların da qatıldığı bir neçə milyon dollarlıq silah tədarükü ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin tenderinin ləğvindən sonra ölkədə "xidmətə qarşı laqeydlik" maddəsi ilə cinayət işi başlanıb. Sonradan bu məlumat nazirlik tərəfindən də rəsmi olaraq təsdiqlənib. Bildirilir ki, ORSIS şirkəti cari ilin may ayında Ermənistan Müdafiə Nazirliyinin bir neçə milyon dollar həcmində hərbi texnika tədarükünə dair elan etdiyi tenderdə müvafiq tələblərə uyğun gəldikləri üçün iştirak etsələr də, bilmədikləri səbəblərdən tenderə xitam verilib və Ermənistan Cinayət Məcəlləsinin "vəzifə səlahiyyətlərinə səhlənkar yanaşma" maddəsi ilə cinayət işi açılıb.

Sənəddən həmçinin görünür ki, Ermənistan Müdafiə Nazirliyi tenderdə iştirak üçün bank zəmanətinin ödənilməsi tələbilə banka qanunsuz müraciət edib, lakin qanunla şirkət tenderdə qalib gəlsəydi və müqaviləni imzalamaqdan imtina etsəydi belə, kompensasiya ödəməli idi. Qeyd edək ki, "Promtexnoloqii" şirkətlər qrupunun bir hissəsi olaraq ORSIS illər boyu Ermənistanı silah, güllə, optik cihazlarla təchiz edir. Şirkətdən bildirilib ki, yaranmış vəziyyət Ermənistanda güllə istehsal edəcək zavodun tikilməsi ilə bağlı layihənin taleyini də sual altında qoyur. Müəssisəyə Rusiya tərəfindən bir neçə milyon ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutulurdu. Amma bütün bunlar, həmçinin Rusiyanın Ermənistana hərbi texnika alışı üçün kredit verməsi artıq ciddi sual altına düşüb. Erməni ekspert Armen Hovasapyan bildirir ki, baş verənlər Kremlin Paşinyana qarşı daha sərt mövqe sərgiləməsinə səbəb olacaq. Onun sözlərinə görə, məhz Paşinyanın gəlişi ilə Rusiya-Ermənistan münasibətlərində böhran başlanıb: "Ermənistan son illər bir sıra daxili və xarici geosiyasi dəyişikliklərə şahid oldu. Bu müddət ərzində ölkə ictimai-siyasi silkələnmələr, konstitusiya və siyasi sistemdə dəyişikliklər yaşadı, Qarabağda hərbi əməliyyatların yenidən başlaması ilə qarşılaşdı, xarici strateji prioritetlərinə yenidən baxıldı və ən əsası, Ermənistanda hakimiyyət dəyişikliyi, daha doğrusu, hakimiyyətin ələ keçirilməsi baş verdi. Bunun da nəticələri Ermənistanın xarici vektorlarına açıq-aşkar təsir etməyə səbəb oldu.

Buna qədər Ermənistanın Rusiyanın yeganə müttəfiqi, Rusiya hərbi bazası olan yeganə ölkə və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olan, Rusiya Federasiyası tərəfindən yaradılan Avrasiya İqtisadi Birliyinə üzv olan yeganə Cənubi Qafqaz ölkəsi kimi bölgədə özünəməxsus rol oynayırdı. Lakin bu kontekstdə Ermənistandakı bu "inqilab"ın ilk növbədə Ermənistan-Rusiya münasibətlərinə təsir etdiyini bildirmək vacibdir və bu, Paşinyanın bütün siyasi karyerası boyu daxili-siyasi sahədə anti-Rusiya xadimi olaraq seçilməsi ilə bağlıdır. Onun baş nazir olması Rusiya tərəfi üçün kifayət qədər arzuolunmaz idi". Bununla yanaşı, ekspert vurğulayır ki, Paşinyan komandasının bəzi üzvlərinin müxtəlif məqamlarda səsləndirdiyi anti-Rusiya ifadələri Ermənistandakı hazırkı siyasi komandanın Rusiya tərəfi ilə siyasi gündəmə çox da sadiq olmadığını göstərir: "Son bir il yarım ərzində Paşinyan və komanda yoldaşları mümkün olan hər variantda Rusiya tərəfinə olan münasibətlərini (Gürcüstan parlamentindəki anti-Rusiya hərəkətləri zamanı salonu tərk etmək, Rusiya ilə bağlı AŞPA-dakı məlum səsvermə, anti-Rusiya rəsmilərinin açıq-aşkar vəzifələrə təyin edilməsi, erməni rəqəmsal telekanalları siyahısından rus dövlət telekanallarının ehtimal edilən çıxarılması və sairə) nümayiş etdirirlər. Bütün bunlarla yanaşı, Rusiya liderinin ümumi geosiyasi marağı nəzərə alması və hər hansı bir tədbir görməzdən əvvəl bütün mümkün risqləri qiymətləndirməsi məntiqlidir. Buna görə də Cənubi Qafqaz Dəmir Yollarının istismarının məlum problemi kimi mövzuların erməni reallığında dolaşması təsadüfi deyil, bu halda, deyilən məqam reallıq olduğu təqdirdə Ermənistan həqiqi təhlükəsizlik təhdidi ilə üzləşə bilər.

Yaxud deyək ki, hər zaman haqqında söhbət edilən qazın satınalma qiymətinin yaxın gələcəkdə 30-35%-ə kimi bahalaşma ehtimalı bunlardan biridir. Bunlar heç vaxt təsadüf sayıla bilməyən məsələlərdir, çünki siyasətdə heç nə unudulmur". Hesab edilir ki, bu gedişlə Moskva üçün İrəvan regionda hədəfə çevriləcək. Bunu rus hərbi təhlilçi İqor Korotçenko da istisna etmir: "Biz Paşinyanın anti-Rusiya xarakterli şərhlər etdiyini müstəqil şəkildə görürük. Burada gizli anti-rus alt konteksti var. Buna görə də erməni xalqı onun fəaliyyətlərini qiymətləndirəcək və siyasi taleyinə qərar verəcək, çünki xalq Paşinyanın hakimiyyətə gəlməyindən əvvəlki vəziyyətlə sonrakı vəziyyət arasında nəticə görməsə, yeni rəhbər istəyəcək. Əslində, proseslər elə bu istiqamətdə də cərəyan edir.

Təəssüf ki, Paşinyan Rusiya ilə münasibətləri korlayıb. Onun addımları Moskvanı getdikcə daha çox narazı salır". Bu vəziyyətdə gözlənir ki, Kreml Paşinyanın mövqelərini laxlatmaq üçün daha radikal addımlar atacaq. Bura ilk növbədə Ermənistana qarşı iqtisadi təzyiq rıçaqlarının işə salınması, satılan qazın qiymətinin qaldırılması, rus kapitalının Ermənistandan çəkilməsi, Rusiyadan pul transfertlərinin kəsilməsi, kreditlərin verilişinin dayandırılması və digər belə məqamlar daxildir. Bunun ardınca Paşinyana qarşı Qarabağ məsələsi üzərindən də təzyiqlərin işə salınması gözlənilən hal sayılır.



***Nahid SALAYEV***

# Son kadr və struktur islahatları ilə yeni dövr başladı - "toxunulmaz" görünən problemlər və kadrlar gündəmə gətirildi

**Artıq bir neçə gündür ölkə siyasəti çalxalanır. Ölkədə ciddi islahatlara start verilib. Bu mənzərə bizə deməyə əsas verir ki, ölkədə həm struktur, həm də kadr islahatları paralel şəkildə aparılır. Xüsusilə də ağırçəkili məmurların istefaya göndərilməsi və mühüm dövlət qurumlarının vahid ələ yığılması islahatların dərin mahiyyət daşıdığına şübhə yeri qoymur.**



***Aydın Quliyev:*** *"MSK-da vəzifə yeniliyini dəyişikliklərin icra sistemindən parlamentə keçid pilləsi kimi də başa düşmək olar"*

***Qabil Hüseynli:*** *"Artıq yeni dönəmə start verilib"*

Hakimiyyətin "ağır artilleriyası" kimi xarakterizə olunan məmurları: Ramiz Mehdiyev, Hacıbala Abutalıbov, Əli Həsənov artıq postlarından istefaya göndəriliblər. Bundan bir neçə gün əvvəl isə ölkəyə yeni Baş nazir və müavini təyin edildi.

Bu miqyasda islahatların aparılması ölkədə ciddi dəyişikliyin başladığını və yeni dönəmə start verildiyini şərtləndirir. Bu yeni dönəm bizim üçün nə vəd edir?

"Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyevin sözlərinə görə, Azərbaycanda, həqiqətən, əvvəlki mərhələlərdən fərqli əlamətlər görünməyə başlayıb: "Təbii ki, söhbət dövlət idarəçiliyindən, kadr siyasətindən, illərlə sanki toxunulmazlıq statusu almış müəyyən iqtisadi problemlərə əsl müharibə elan edilməsindən gedir. Budəfəki kadr dəyişiklikləri cəmiyyətdə və iqtidarda daha çox rezonans doğurub. İlk dəfədir nisbətən geniş miqyasda kadr və struktur islahatlarının fasiləsiz aparıldığını görürük. İqtisadi sektorun problemlərinə yanaşmada kəskin yeniliklər var. Neqativ işlərlə məşğul olan məmurlara mesajlar daha konkret oldu. Həm biznes aləminə qanunsuz müdaxilə edərək inhisarçılıq və haqsız rəqabət yaradan məmurlara kəskin mesajlar var, həm də reket media ilə birləşərək islahatçı kadrlar kimi təqdim olunan şəxsləri şantaj edən məmurların çevrəsi göstərilir. İndiyə qədərki kadr islahatlarının çərçivəsindən kənarda qala bilən bəzi məmurların dəyişdirilməsi də başlanmış mərhələyə yeni keyfiyyət verən amildir.

Prezident ilk dəfə idi ki, həqiqətən işləmək, islahat aparmaq istəyən məmurlara təxminən "yaxşı işlədiyiniz, prinsipial və güzəştsiz fəaliyyət göstərdiyiniz həddə qədər əlim sizin çiyninizdədir" kimi mesaj verirdi. Bu çox mühüm hadisədir. Bu mesaj Mikayıl Cabbarovu qəbul edərkən verilsə də, bəlli kateqoriyadan olan hər bir məmur ondan özünə pay götürə bilər. Prezident xüsusilə iqtisadi sektorda mümkün təxribatların zərərsizləşdirilməsində hüquq-mühafizə orqanlarına güvəndiyini bir daha açıq söylədi. "Artıq məndən tapşırıq alıblar" sözləri elə bu deməkdir".

Aydın Quliyevin sözlərinə görə, yeni dövrün əlamətlərindən biri də Prezidentin təyinat almış və yola salınmış məmurlarla açıq söhbətlər aparmasıdır: "Bu da yeni üsuldur. Yola salınan məmurlar fəaliyyətlərinə görə təşəkkür alır, yeni təyin olunan məmurların isə əsas vəzifələri ona açıq şəkildə deyilir. Həm də bu söhbətlərin ictimaiyyət üçün açıqlanmasının başqa mənası var. Əsas odur ki, bu üsul yeni təyinat almış məmurların şəxsən Prezident qarşısında məsuliyyətinə həm də ictimaiyyət qarşısında məsuliyyət hissini əlavə edir. İkiqat artan məsuliyyətin effekti, təbii ki, çox olmaq şansına malikdir.

Kadr siyasətinin bir xüsusiyyəti də dövlətdə orta yaş kadrlarının böyük xüsusi çəkisini saxlamaq şərtilə, çox yaşlıların sayının minimuma endirilməsi hesabına gənc kadrlara daha geniş yol açmaqdır. Prezidentin bu xüsusda balansı saxlamaq niyyətləri aydın görünür. Həqiqətən də çox yaşlıları, xüsusən də yaşı 80-ə yaxın olanları yavaş-yavaş hörmətlə sakit həyata yola salmaqla, gənc kadrları irəli çəkməklə bərabər, orta yaş təmsilçiləri olan kadrların da xüsusi çəkisini qorumaq çox vacibdir, dünya praktikasında da bu amilə xüsusi diqqət verilir. Prezidentin son kadr islahatlarında orta yaş dövrü kadrları ilə bağlı müəyyən mütərəqqi niyyətlər də özünü göstərir. Prezident elə dedi ki, kiçik və orta sahibkarlar bütün inkişaf etmiş ölkələrdə iqtisadi uğurların əsas təminatçısıdır. Bu məntiqə söykənərək onu da deyək ki, orta yaş dövrü kadrlar istənilən hakimiyyət komandasının uğurlarının əsas şərtlərindən biridir".

Baş redaktor hesab edir ki, son kadr və struktur dəyişiklikləri həqiqətən yeni mərhələnin əlamətlərini göstərir: "Həm də hələlik icra hakimiyyəti sistemində yeniliklər başlayıb. Oxşar kurs parlament sistemində də aparılandan sonra yeni dövrün mənzərəsi tam şəkil alacaq və hamı, həqiqətən, yeni dövrün başladığına tərəddüdsüz inanacaq. İctimai rəy kadrlar məsələsində dəyişmələrin parlamentə qədər davam etdirilməsini istəyir. Subyektiv fikir ola bilər, ancaq şəxsi müşahidələrimə görə, ictimaiyyət parlamentin tək yaşlılar korpusunda yox, hətta gənclər korpusunda da müəyyən korreksiyalar aparılmasını gözləyir.

MSK-da vəzifə yeniliyini dəyişikliklərin icra sistemindən parlamentə keçid pilləsi kimi də başa düşmək olar".

Politoloq Qabil Hüseynli də qəzetimizə bildirdi ki, aparılan struktur və kadr islahatlarını yeni dönəmin başlanğıcı kimi xarakterizə edir: "Gec də olsa, geniş kadr və struktur islahatlarına start verildi. İslahatlar aparılırdı, ancaq bu miqyası əhatə etmirdi. Prezidentin özü də çıxışında deyir ki, bundan sonra bütün diqqət ölkədə qeyri-neft sektoru və ağır sənayenin inkişafına yönələcək. Hər bir ölkənin ayaq üstə dayanması üçün mütləq ağır sənayenin inkişafına nail olunmalıdır. Sovet dövründən qalma böyük sənaye müəssisələri vardı. Həmin zaman biz SSRİ-nin neft akademiyası adlanırdıq. Təxminən 60-a qədər neft maşınqayırması üzrə zavod vardı. Həmin zavodlar demək olar ki, çalışmır. Biz neft ölkəsiyik, burada neft maşınqayırması inkişaf etməlidir. Köhnə zavodları işə salmalıyıq.

**Bununla yanaşı, kadr islahatlarını da ciddi və şəffaf aparmaq lazımdır. Prezidentin öz siyasi iardəsidir ki, estafet gənclərə verilsin. İş başına gətirilənlərin yalnız yaşı nəzərə alınmamalıdır. Eyni zamanda, onların əqidəsi, Vətənə bağlılığına önəm verilməlidir. Biz islahatların real nəticəsini kənd təsərrüfatı və qeyri-neft sektorunda hiss edirik. Hesab edirəm ki, paralel şəkildə aparılan struktur və kadr islahatları idarəetməni təkmilləşdirəcək və ciddi irəliləyişlərə aparacaq. Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun payı yüksək olmalıdır. Biz elə mərhələyə çatmalıyıq ki, özümüzə lazım olan bütün malları ölkədə istehsal edək. Buna bizim potensialımız var. Hesab edirəm ki, aparılan islahatlar buna gətirib çıxaracaq. Sözsüz ki, proseslər ona doğru getməkdədir. Artıq yeni dönəmə start verilib".**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Avroparlamentin "Basesku qərarı" - Qarabağ məsələsində Ermənistanın məğlub diplomatiyasına dair daha bir etiraf faktı...

**Siyasi, diplomatik, iqtisadi, hərbi və digər mühüm istiqamətlərdə Azərbaycanın işğalçı Ermənistanı dəfələrlə üstələməsi fonunda Dağlıq Qarabağ münaqişəsinin artıq yaxın tezlikdə həlledici mərhələyə daxil olması da qaçılmaz sayılır. Çünki Ermənistan üzərində hərtərəfli üstünlüyə malik Azərbaycan ərazi bütövlüyünün bundan sonra da pozulmuş şəkildə qalmasına imkan vermək niyyətində deyil.**

Əslində, indi Ermənistanda da etiraf olunur ki, Azərbaycan artıq Qarabağ məsələsi üzərindən İrəvana təzyiqlərini daha da artırır. Erməni tərəfini narahat edən başlıca məqamlardan biri də budur ki, Azərbaycanın mövqeyi dünya miqyasında dəstəklənir və Bakının tərəfdarları, erməni lobbisinin bütün müqavimətinə baxmayaraq, artır. Məsələn, Ermənistanın "Qraparak" qəzeti yazır ki, İrəvan yerində saydığı halda Bakı özünə yeni tərəfdarlar qazanır, mövqelərini daha gücül hala gətirir: "Biz daxili-siyasi qarşıdurmalarla məşğul olduğumuz halda, ətrafımızda bizim üçün faydalı olmayan hadisələr baş verir". Qəzet buna əyani misal kimi qeyd edir ki, Avropa Parlamentinin Xarici Əlaqələr Komissiyası Ermənistan məsələsi üzrə yeni məruzəçi təyin edib: "Bu, İlham Əliyevin ən yaxın adamlarından biri və "Nabukko" qaz kəmərinin lobbiçilərindən olan Ruminiyanın sabiq prezidenti Trayan Baseskudur. Avropa Parlamentinin əsas məruzəçiləri ən azı ildə bir dəfə siyasi qiymətləndirmələr təqdim edirlər. Qarabağ məsələsində öz mövqeyi ilə məşhur olan məruzəçi halında yaxın 5 ildə Trayan Basesku tərəfindən hazırlanacaq Avropa Parlamentinin hesabatlarında Ermənistan üçün xoşagəlməz sürprizlər gözlənilir. Səbəb Ermənistan hakimiyyətinin fəaliyyətsizliyidir. Məlum olur ki, Ermənistan may ayından sonra formalaşdırılmış Avropa Parlamenti ilə heç bir rəsmi əlaqə qurmayıb, iş aparmayıb və səfərlər olmayıb. Nə Ermənistan XİN, nə də parlament Baseskunun təyin olunmasına mane olmağa çalışıb". Qəzet daha sonra yazır ki, baş verənlər İrəvanın əleyhinə işləyir və Bakı hər bənd üzrə İrəvanı qabaqlayır, siyasi arenada Qarabağla bağlı qlobal uğurlar əldə edir:" Baseskunun seçilməsi, sözsüz ki, siyasi arenada Bakının növbəti diplomatik uğurudur. O, tam olaraq azərbaycanyönümlü siyasətçidir. Təsəvvür edin, Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin Ermənistan üzrə məruzəçisi Qarabağda baş verən hər bir prosesə siyasi qiymət verəcək. Bunun İrəvan üçün nəyə gətirib çıxaracağını anlamaq çətin deyil".

Erməni mediası onu da xüsusi olaraq vurğulayır ki, ümumiyyətlə, son illərdə Azərbaycan diplomatiyası Avropa istiqamətində fəal işləyib. Elə bunun nəticəsidir ki, Avropa Parlamenti və Avropa İttifaqı Qarabağ məsələsində son illərdə Azərbaycanın mövqeyini dəstəkləyən qətnamələr və digər sənədlər qəbul edib. Bu xüsusda erməni tərəfi hələ 2017-ci il noyabrın 24-də Avropa İttifaqının Brüsseldə keçirilən "Şərq Tərəfdaşlığı" sammitində qəbul edilən Birgə Bəyannaməni qeyd deilənlərə real nümunə qismində göstərir. Xatırladaq ki, Ermənistan nümayəndə heyətinin çoxsaylı cəhdlərinə baxmayaraq, həmin Birgə Bəyannamədə "Şərq Tərəfdaşlığı"nın bütün dövlətlərinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi birmənalı olaraq dəstəklənib. Özü də Birgə Bəyannamədə Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik Qlobal Strategiyasına istinad edilib. Xatırladaq ki, bu Qlobal Strategiyada Avropa İttifaqının üzv və qonşu dövlətlərinin ərazi bütövlüyü beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində qeyd edilib. Birgə Bəyannamənin digər bəndində Şərq Tərəfdaşlığı ölkələrinin ərazilərində baş verən bütün münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması vurğulanıb. O vaxt Ermənistan tərəfinin bu bəndə onun işğalçı maraqlarına cavab verən maddələrin əlavə edilməsi cəhdləri puça çıxdı. Brüssel Sammitində qəbul edilən Birgə Bəyannamə mahiyyətinə görə beynəlxalq hüquqa əsaslanan və strateji əhəmiyyət daşıyan sənəd kimi qiymətləndirilərək Ermənistanın işğal siyasətinə növbəti zərbə oldu. Bundan cəmi bir ay sonra Avropa Parlamenti illik "Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik haqqında qətnaməsi"ni qəbul etdi. Özü də bu sənəd "Şərq Tərəfdaşlığı" ölkələrinin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəkləməyə dair öhdəliklərinə sadiq olduğunu ilk dəfə təsdiqlədi. Bu mənada, indinin özündə də həmin sənəd Avropa İttifaqının Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın ərazi bütövlüyü ilə bağlı münaqişələrə münasibətinə dair prinsipial əhəmiyyətə malikdir. Çünki burada "Şərq Tərəfdaşlığı" ölkələrinin ərazi bütövlüyünə dəstəyə sadiqlik ilk dəfə bütün bu dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində göstərilir. Bundan əvvəl ötən ilin sonuna qədər belə konkretlik yalnız Ukraynaya münasibətdə nümayiş etdirilirdi. Amma artıq vəziyyət dəyişib. Digər tərəfdən, ərazi bütövlüyünə sadiqlik ilk dəfə Avropa İttifaqının öhdəlikləri qismində ifadə olunub. Üçüncüsü, ilk dəfə bu şərh ümumi planda deyil, "Şərq Tərəfdaşlığı"ölkələrində yer almış bütün münaqişələrin nizamlanması kontekstində istifadə olundu. Avropa Parlamentinin cari ilin martında qəbul etdiyi və Avropa Şurasına, Avropa Komissiyasının vitse-prezidentinə və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə nümayəndəsinə yollādığı rəyi də ermənilər üçün ciddi zərbə oldu. Çünki burada Avropa Parlamenti bir daha Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi. Bu xüsusda sənəddə deyilir: "Şərq tərəfdaşlığı" ölkələrinin müstəqilliyi, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə zərər vurmaq məqsədi daşıyan dezinformasiyanın yayılmasını və gələcək dezinformasiya təhdidlərini diqqətə almaq; insanlar arasında əlaqələrə diqqət yönəltməklə və icmalar səviyyəsində dayanıqlılıq mənbəyi olan mövcud vətəndaş cəmiyyəti şəbəkələri ilə işləməklə, "Şərq tərəfdaşlığı" ölkələri ilə uzunmüddətli strateji yanaşmanın və qarşılıqlı fəaliyyət proqramının hazırlanmasına prioritet diqqət ayırmaq əsas məqsədlər sırasında yer alır".Eləcə də Avropa Parlamentinin qəbul etdiyi " Avropa İttifaqının tərəfdaş ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə dəstəyə sadiqliyi" adlı qətnamə də Ermənistan üçün ciddi diplomatik məğlubiyyət sayılır. Məhz bütün bunlar fonunda Trayan Baseskunun Avropa Parlamentində Ermənistan məsələsi üzrə yeni məruzəçi təyin edilməsi İrəvanda böyük təşviş doğurub. Çünki Ermənistanda hesab edirlər ki, bu hal Qarabağ məsələsində Azərbaycanın Ermənistana Avropada daha ciddi zərbələr vurması ilə müşayiət ediləcək. Bütün bunlardan Ermənistan və havadarları indi çox narahatdırlar. Çünki onlar artıq heç bir bəhanə ilə təcavüzkar ordunun işğal etdiyi torpaqlardan çəkilməsinə hüquqi don geydirə bilmirlər. Digər tərəfdən, belə vəziyyətdə BMT-nin dörd məlum qətnaməsinin də reallaşması üçün əlavə imkanlar yaranır.

Bununla yanaşı, o da faktdır ki, erməni tərəfi təkcə Avropada işğal siyasətinə görə tənqid və təzyiq hədəfinə çevrilmir. Erməni mediası yazır ki, Avropa ilə yanaşı, Rusiya ilə əlaqələrdə də çöküş davam edir. Bunun sübutu kimi qeyd olunur ki, Rusiyanın Azərbaycanla hərbi əməkdaşlığı, xüsusilə silah satışı davam edir. Bu məsələyə Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı yenidən toxunub. Paşinyan Ermənistanda bütün siyasi qüvvələrin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin, xüsusilə Rusiyanın Azərbaycanla silah satışına qarşı olduğunu bildirib: "Ermənistanda bütün siyasi güclər bu məsələdə həmfikirdir, hətta mövqelərimizi dəqiqləşdirməyə ehtiyac yoxdur". Paşinyan qeyd edib ki, Ermənistan Rusiya tərəfi ilə danışıqlarda, müxtəlif platformalarda bu məsələni hər zaman qaldırır. Amma Paşinyanın bu dediklərinə rəğmən, erməni mediası yazır ki, Rusiya Azərbaycanla hərbi əməkdaşlığı genişləndirir və bura Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının digər üzvləri, xüsusən də Belarus daxil edilir. Rusiyalı ekspert Yuri Mavaşyev isə bildirir ki, Moskva Bakı ilə münasibətləri bundan sonra da dərinləşdirmək niyyətindədir: "Moskva üçün İrəvanın mövqeyi maraqlı deyil. Rusiya, Erəmnistanın narazılığına baxmayaraq, Azərbaycan və Türkiyə ilə əməkdaşlığı genişləndirir, onlara müasir hərbi texnika satır. Ermənistan və erməni lobbisi Moskvanın Bakı və Ankara ilə münasibətlərində problem yaratmaqda maraqlıdır. Amma bu alınmayacaq. Xüsusən də Paşinyanın xarici siyasəti fonunda bu alınmayacaq. Digər tərəfdən, geosiyasi dəyişikliyi, Rusiya və Türkiyənin Suriya analaşmasını diqqətdən qaçırmaq olmaz. Ermənistanda düşünürlər ki, növbəti onlardır. Kürdlərlə olduğu kimi, onlarla da elə davranacaqlar. Bilirlər ki, Qarabağ məsələsini həll etmək, Azərbaycanla ortaq dil tapmaq lazımdır. Bundan sonra heç bir problem olmayacaq. Biz Rusiya tərəfindən Ermənistana razılaşmanın vacibliyi ilə bağlı çağırışları eşitmişik. Və Suriya məsələsinə qayıdaraq qeyd edim ki, əlbəttə, bölgədəki bütün ölkələr Suriya probleminin həll yolunda maraqlı olmalıdır. Ancaq problem ondadır ki, hər kəs "münaqişənin həlli" konsepsiyasına fərqli şəkildə yanaşır. Bax, Ermənistan da burada öz istəyini ortaya qoyur. Amma artıq onunla hesablaşan yoxdur". Bütün bunlar fonunda Ermənistanda hesab edirlər ki, İrəvan xarici siyasət sferasında Bakıya daha böyük hesabla məğlub olur və bu da Qarabağ məsələsinə öz təsirini göstərir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Fransada antierməni kampaniyası - şəhərlərin qardaşlaşmasının ləğvindən sonra redaksiyaya və kollecə basqınlar...

***Rauf Zeyni:** "Hesab edirəm ki, ermənilərin qəzetinə və kollecinə basqınların edilməsi Fransa cəmiyyətinin erməni yalanlarına etirazının əlamətidir"*

**Erməni lobbisinin uzun illərdən bəri Avropa ölkələrində mövcud olan dayaqları artıq laxlamağa başlayır. Zaman-zaman Fransa hökumətinə, eləcə də buradakı siyasi qüvvələrin fəaliyyətinə nüfuz etməyi bacaran erməni lobbisi ölkədə Azərbaycan əleyhinə bir sıra işlərin görülməsinə nail ola bilmişdi.**

Lakin son dövrlər Fransada ermənilərə qarşı bir soyuqluq olduğu müşahidə edilməkdədir. Bildiyimiz kimi, uzun illər erməni yalanlarının qol-qanad açdığı Fransada ermənilərin əleyhinə qərarlar da qəbul edilib. Buna misal olaraq işğal altında olan Azərbaycan şəhərləri ilə Fransanın bəzi şəhərlərinin qardaşlaşmasını ifadə edən "xartiya"nın bu ölkənin məhkəmələri tərəfindən ləğv edilməsini göstərə bilərik. Bildiyimiz kimi, indiyə qədər Fransa məhkəmələri 10 belə "xartiya"nın ləğv edilməsi barədə məhkəmə hökmü çıxarıb. Bu prosesin ardınca isə ermənilərin əleyhinə başqa hadisələr baş verib. Məlum olduğu kimi, bir neçə gün əvvəl Fransada nəşr edilən ermənidilli qəzetin redaksiyasına basqın edilib, onun ardınca isə bu ölkədə fəaliyyət göstərən erməni kolleci basqına məruz qalıb. Şübhəsiz, erməni mediası bu basqınların həyata keçirilməsində ənənəvi olaraq türkləri ittiham edir. Lakin müşahidələr və rəsmi məlumatlar bunun əksini göstərir.

Fransa məhkəmələrinin Azərbaycanın xeyrinə çıxardığı 10 məhkəmə hökmünün ardınca Fransada ermənidilli qəzetə və kollecə basqınlar edilməsi erməni lobbisinin bu ölkədə dayaqlarının laxlaması, öz nüfuzunu itirməsi kimi xarakterizə edilə bilərmi?

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, artıq erməni yalanları mexanizmi dünyada get-gedə öz işləkliyini itirir. R.Zeyni hesab edir ki, ermənilərin dünya çapında törətdikləri terror hadisələri, eləcə də Azərbaycan torpaqlarına təcavüz etməsi, illərdir bizim torpaqları işğal altında saxlaması artıq Avropaya məlumdur. Onun sözlərinə görə, bu səbəbdən də artıq erməni lobbisi Avropada öz gücünü itirməkdədir. "Biz uzun illərdir deyirdik ki, nə zamansa dünya erməni yalanları haqqında həqiqətləri biləcək və bilməlidir. Bu istiqamətdə Azərbaycan dövlətinin, ölkə Prezidenti cənab İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın gördüyü işlər, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın həyata keçirdiyi "Xocalıya ədalət" beynəlxalq kampaniyası çox mühüm yer tutur. Eyni zamanda, erməni yalanlarının dünyada ifşa edilməsi ilə bağlı qeyri-hökumət təşkilatlarının, soydaşlarımızın, alimlərin, kütləvi informasiya vasitələrinin yaydıqları həqiqətlər nəhayət ki, dünyanın kar olmuş qulaqlarına çata bildi. O cümlədən, Fransada bu reaksiya doğurmalı idi. Bilirsiniz ki, yüz illər boyu ermənilərin Fransada çox güclü dayaqları formalaşıb. Hələ Miteranın dövründə Eduard Polledül erməni lobbisinin dəstəyilə baş nazir vəzifəsinə gəlib çatmışdı. Özü də milliyyətcə erməni idi. Bu arada tanınmış erməni müğənnisi Şarl Aznavurun da erməni lobbisinin güclənməsi istiqamətində gördüyü işləri yada sala bilərik. Həm erməni lobbisi ona dəstək verirdi, həm də o, erməni lobbisinin güclü dayağına çevrilmişdi. Ümumiyyətlə, Fransa hökumətində ermənilərin dayaqları möhkəmdir, amma artıq Fransa cəmiyyətində ermənilərin dayaqları laxlayır, ictimaiyyət erməni yalanları haqqında həqiqətləri eşitdikcə, onlardan adekvat reaksiyalar gözlənilən idi. Biz bunu illərdir gözləyirdik ki, Fransa ictimaiyyəti, cəmiyyəti erməni yalanlarını bildikdən sonra işğalçı, terrorçu, yalançı, saxtakar, böhtançı ermənilərə qarşı öz mövqeyini bildirəcək. Artıq Fransa ictimaiyyəti özü erməni saxtakarlıqları haqqında həqiqətləri bildikcə, ermənilərdən yaxa qurtarmağa, xilas olmağa başlayıb. Dünyada da ermənilərin yalanları artıq yerimir, işləmir. Atalarımız deyir ki, yalan ayaq tutar, amma yeriməz. Lakin erməni yalanları uzun illər dünyada ayaq tutub yeridi".

R.Zeyni qeyd etdi ki, uzun illər erməni lobbisinin apardığı yalan təbliğat sayəsində müxtəlif dövlətlər, parlamentlər qondarma "erməni soyqırımı"nı tanıyıb, Azərbaycanın işğal altında olan şəhərləri ilə "qardaşlaşma sənədləri" imzalayıblar. Uzun illər Azərbaycan həqiqətlərini eşitmək istəməyən Fransada Azərbaycanın xeyrinə çıxarılan məhkəmə hökmlərinin və ermənilərin kollecinə, qəzetinə basqın edilməsinin şahidi olduğumuzu deyən R.Zeyni hesab edir ki, bu baş verməli idi. "Hesab edirəm ki, ermənilərin qəzetinə və kollecinə basqınların edilməsi Fransa cəmiyyətinin erməni yalanlarına etirazının əlamətidir. Fransa cəmiyyəti bu yalanlarla bağlı artıq hərəkətə gəlib. Bu onu göstərir ki, Fransa cəmiyyətində artıq buzlar əriməyə başlayıb. İnanıram ki, qısa müddət ərzində Fransa ictimaiyyətində bu məsələlər həll oluna bilər, haqq-ədalət öz yerini tutar. Ümid edirəm ki, analarımızın ahı yerdə qalmayacaq. Erməni təcavüzü nəticəsində heç bir günahı olmayan Azərbaycan xalqı müharibəyə cəlb edildi, torpaqlarımız işğal olundu, 1 milyondan çox qaçqınımız var, eyni zamanda, erməni terroru, işğalı bu gün də davam edir. Hesab edirəm ki, Fransa ictimaiyyəti də erməni yalanlarından can qurtarıb artıq bu məsələyə qiymət verməkdədir" - deyə R.Zeyni vurğuladı.



"Artıq Fransa cəmiyyətində ermənilərin dayaqları laxlayır"

***İradə SARIYEVA***

# Prezident qara yolla maaş alan işçilərə əla tövsiyə verdi...

**Məlumdur ki, oktyabrın 23-də Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib. Prezident nazirlə görüşən zaman bir sıra məsələlərə toxunub. O cümlədən, ölkə başçısı bəzi iş yerlərində əməkhaqlarının düzgün qeyd olunmaması məsələsinə də toxunub:**



## *Elçin Quliyev: "Əməkhaqlarının düzgün göstərilməməsi büdcə daxilolmalarına da təsir edir"*

"Əsas vəzifələr bundan ibarətdir. Deyə bilərəm ki, islahatlar yaxşı nəticələr verir. Bu ilin doqquz ayında 100 mindən çox əmək müqaviləsi qeydiyyata alındı. Yəni bu, nə deməkdir? Yəni bu yüz min insan kölgə iqtisadiyyatında fəaliyyət göstərirdi. Onlar zərflərdə maaş alırdılar. Bəzi hallarda onlara yazılan aşağı maaş reallığı əks etdirmirdi. Bu, bizim iqtisadiyyatımızı təhlükə altına qoyur. Bir də ki, bu insanlar gələcəkdə pensiyaya çıxacaqlar. Bəs onların pensiya haqqı nəyin hesabına hesablanacaq? Ona görə mən, o cümlədən, muzdla işləyən vətəndaşlara da üz tutub deyirəm: bu işlərə baş qoşmayın. Əgər hansısa sahibkar sizə tutaq ki, 500 manat maaş verirsə və onun 250 manatını rəsmi qaydada verirsə, siz buna razı olmayın. Çünki sabah pensiya almayacaqsınız. Sosial sığorta problemi olacaq. Biz indi icbari tibbi sığortaya keçirik. Orada da problem yaranacaq. Əlbəttə ki, burada nəzarət daha güclü olmalıdır. Hesab edirəm ki, 100 mindən çox iş yerinin rəsmiləşdirilməsi ilə bu iş yerlərini, o cümlədən, o sahibkarların fəaliyyətini biz kölgədən çıxarırıq. Bu iş yerlərinin 80 faizi qeyri-neft sektorunda qeydiyyata alınıb. Hələ ki, ən azı, on minlərlə insan indi demək olar ki, bir növ, kölgə iqtisadiyyatında fəaliyyət göstərir. Ona görə bu sahə çox ciddi diqqət tələb edir, çox ciddi addımlar atılmalıdır. Əminəm ki, İqtisadiyyat Nazirliyi bu məsələnin öhdəsindən gələcək".

Prezident İlham Əliyev nazirlə görüşən zaman əməkhaqqı alan işçilərə tövsiyə verməsinin əhəmiyyəti barəsində fikir bildirən millət vəkili Elçin Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ötən ildən

*"İqtisadiyyatın inkişaf etdirilməsi, o cümlədən, insanların firəvan yaşaması üçün əməkhaqlarının olduğu qaydada qeyd olunması vacibdir"*

etibarən social-iqtisadi sahədə islahatların aparılmasının labüdlüyü barədə anonslar verilmişdi: "Qısa müddət ərzində əməkhaqlarının həcmi qaldırıldı, bununla yanaşı, pensiya və müavinətlərin həcmi də yüksəldi. Eyni zamanda, tələbələrin təqaüdü, şəhid ailələri və məcburi köçkünlər üçün nəzərdə tutulan müavinətlərin həcmi yüksəldi. Prezident İlham Əliyev buna bənzər bir neçə sərəncam imzaladı. 2019-cu ildə isə yeni bir mərhələ başladı. Bu il iqtisadiyyatla bağlı vaxtı keçmiş və labüd olan proseslərə start verildi. Bu istiqamətdə Prezident bütün komanda heyətinə aidiyyəti mesajını yönəltdi. Son kadr islahatları da ona söykənir ki, yeni erada tam şəffaf proseslərlə Azərbaycan iqtisadiyyatı inkişaf etdirilməlidir. Bunun da ən böyük təzahürlərindən biri əməkhaqları ilə bağlıdır.

Danılmaz faktdır ki, əksər iş yerində əməkhaqları yüksək verilirdi, ancaq rəsmi sənədlərdə maaşın həcmi az göstərilirdi. İqtisadiyyatın inkişaf etdirilməsi, o cümlədən, insanların firəvan yaşaması üçün əməkhaqlarının olduğu qaydada qeyd olunması vacibdir. Maaşların düzgün şəkildə qeyd olunması onların gələcəkdə pensiya təminatına da müsbət təsir edəcək. Həmçinin, şəffaflığın təmin olunmasınas səbəb olacaq. Əməkhaqlarında şəffaflığın təmin olunması vergi daxilolmalarını təmin edir. Əməkhaqlarının düzgün göstərilməməsi büdcə daxilolmalarına da təsir edir".

***Günel CƏLİLOVA***

# Orta və kiçik sahibkarların ÜDM-dəki roluna görə biz niyə inkişaf etmiş ölkələr səviyyəsində deyilik...

**"Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumdaxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki, belə deyil". Bunu Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**



## *Fikrət Yusifov: "Korrupsiya və rüşvətxorluq, inhisarçılıq kiçik və orta sahibkarlığın inkişafını əngəlləyib"*

Prezident bildirib ki, qarşıdakı illərdə qeyri-neft sektoru və kiçik-orta biznes inkişaf etməlidir: "Bizim iqtisadi inkişafımız bundan sonra da qeyri-neft sektoru hesabına davam etdirilməlidir. Buna nail olmaq üçün son illər böyük işlər görülüb, sənaye zonaları yaradılıb, orada xüsusi vergi rejimi tətbiq olunur. Aqroparklar yaradılıb və orada da məhsuldarlıq daha yüksəkdir. Ancaq bütün bu işləri biz, ilk növbədə, biznesin inkişafı prizmasından həll etməliyik".

Ölkə başçısının fikrincə, hökumət və digər qurumlar qeyri-neft sektorunun, eləcə də kiçik və orta biznesin inkişafına fokuslanmalıdır: "İndiki dövrü mən şərti olaraq postneft dövrü adlandırardım. Ona görə yox ki, bizim neftimiz tükənir, əksinə, bizim ehtiyatlarımız kifayət qədər yüksəkdir, o cümlədən, qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrə bərabərdir. Ona görə mən indiki dövrü postneft-qaz dövrü adlandırıram ki, bizim siyasətimizdə bu sahə kənara qoyulmalıdır. Bu sahədə nə lazım idisə gördük. Ancaq biz iqtisadi inkişafımızı qeyri-neft sektoru üzərində qurmalıyıq".

Bütün bu deyilənlərin fonunda maraqlıdır, niyə Azərbaycanda ÜDM-in formalaşmağında kiçik və orta sahibkarlıq əsas rola malik deyil? Bunun üçün hansı işlərin görülməsinə ehtiyac var?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, ÜDM-də kiçik və orta sahibkarlığın çəkisinin az olmasının bir sıra səbəbləri var: "Hansı ki, gərək indiyə qədər kiçik və orta sahibkarlığın iqtisadiyyatda çəkisi böyük olmalı idi. Ancaq sözügedən sektorun inkişafını əngəlləyən sədlərin mövcud olması buna imkan verməyib. Məsələ ondadır ki, korrupsiya və

*"Bu gün banklar, faktiki olaraq, sahibkarı, iş adamını maliyyələşdirmirlər"*

rüşvətxorluq, inhisarçılıq kiçik və orta sahibkarlığın inkişafını əngəlləyib. Bu səbəbdən sözügedən sahənin inkişafında əhəmiyyətli irəliləyiş əldə edilməyib. Ona görə də bütün bunlar aradan qaldırılmalıdır ki, kiçik və orta sahibkarlıq cənab Prezidentin dediyi bir səviyyədə inkişaf edə bilsin. Digər tərəfdən, kiçik və orta sahibkarlığın inkişafı üçün ölkədə təşəbbüskar, layihəsi əlində olan və işi bacaran sahibkarlara şərait yaradılmalıdır. Həmin sahibkarların maliyyə vəsaitlərinə əlçatanlığı təmin edilməlidir. Dövlət öz maliyyə resurslarından da bu məqsədlə istifadə etməlidir. Bununla belə, banklar sahibkarlara kreditlərin verilməsi sahəsində öz fəaliyyətlərində dönüş etməlidirlər. Bu gün banklar, faktiki olaraq, sahibkarı, iş adamını maliyyələşdirmirlər. Bu olduqca ciddi bir məsələdir. Sahibkar nə edirsə, bunu, faktiki olaraq, öz vəsaiti hesabına edir. Öz vəsaiti yoxdursa, deməli, heç nə edə bilmir. Banklardan 15, 20, 30 faizlə götürülən kreditlərlə biznes qurmaq mümkün deyil. Bunu da cənab Prezident öz çıxışlarında dəfələrlə xüsusi vurğulayıb ki, banklar iqtisadiyyata üz tutmalıdırlar. Ancaq çox təəssüflər olsun ki, banklar bu çağırışa əməl etmirlər. Kiçik və orta sahibkarlara sərfəli şərtlərlə kredit vermirlər. Hesab edirəm ki, bu problemlər həll edilməlidir. Yalnız bütün bunlardan sonra Azərbaycanda kiçik və orta sahibkarlıq arzuolunan səviyyədə inkişaf edəcək".

***Vidadi ORDAHALLI***

# Ramiz Mehdiyevin gəlişindən sonra Akademiyanı nə gözləyir...

**Ölkəmizin baş elmi mərkəzi olan Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) praktik olaraq elm sahələrinin inkişafına təkan verməli, bu sahəni istiqamətləndirməli, elmi görüşləri realizə etməli olduğu halda, faktiki olaraq, bu funksiyanı yerinə yetirə bilmirdi. Müasir dünyanın çağırışlarına çevik və mobil cavab verməli, elmi kadrların hazırlığı sahəsində mühüm addımlar atmalı olan AMEA-da son illər bunlar baş vermirdi.**

Bundan əlavə, AMEA sistemində bir-birini təkrar edən elmi-tədqiqat institutlarının, şöbələrin çoxluğu, eyni zamanda, adı ştatda olan və özü, ümumiyyətlə, işə gəlməyən "ölü canlar" da AMEA-nın ən böyük problemlərindən biri kimi diqqəti həmişə cəlb edib. AMEA-da mövcud problemlər həll edilmir, ümumiyyətlə, günü-gündən dərinləşirdi. Saxta yolla elmi iş müdafiə edənlər də bu sistemdə kifayət qədər idi. AMEA-nın çevik işləməməsi sayəsində Azərbaycan elminin beynəlxalq aləmdə imici, demək olar ki, elə də müsbət deyildi. Onu da qeyd edək ki, bir sıra mütəxəssislər AMEA-da ciddi islahatlar aparılmalı olduğunu, bunun kadr islahatlarını da ciddi şəkildə əhatə etməsinin vacibliyini dəfələrlə vurğulayırdılar.

Akademik Ramiz Mehdiyevin AMEA prezidenti seçilməsi bu sistemdə yeni islahatlar dalğasının başlanacağını deməyə əsas verir. Mütəxəssislər də hesab edirlər ki, AMEA-nın indiyə qədər mövcud olan bütün problemlərinin həllinə nail olmaq mümkün olacaq.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, qarşıdakı dövrdə AMEA-nı ciddi yeniliklər gözləyir. O hesab edir ki, R.Mehdiyev bu quruma rəhbərliyi dövründə burada ciddi islahatlar həyata keçiriləcək: "Ölkə Prezidentinin sərəncamı ilə Prezident Administrasiyasının rəhbəri vəzifəsindən azad edilən akademik Ramiz Mehdiyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçildi. Düşünürəm ki, Ramiz Mehdiyevin bu quruma rəhbər seçilməsi Akademiyanın tarixində ciddi hadisə kimi yadda qalacaq. Bizdə bir məsəl var: "Gedənin arxasınca danışmazlar". Amma yaxşını deyiriksə, hər halda pisi də qeyd etmək lazımdır. Xeyli müddətdir apardığım müşahidə nəticəsində gəldiyim qənaət bundan ibarətdir, həqiqətən də Elmlər Akademiyası son dövrlər çox ciddi problemlər yaşayırdı. Biz bilirik ki, Azərbaycanda elmin inkişafı dövlət başçısının diqqətindədir və bu sahə diqqət, qayğı ilə əhatə olunub. Bu qayğı ən yüksək səviyyədə, ölkənin siyasi rəhbəri səviyyəsində mövcuddursa, bəs nədən bizim elmimiz bu qədər geri qalır, cəmiyyətin ümumi lokomotivi rolunda çıxış edə bilmir. Bunun çox ciddi səbəbləri var. Azərbaycanın elm məbədi sayılan və eyni zamanda, rəsmi olaraq dövlətin ali elmi qurumu statusunda olan Elmlər Akademiyası müasir dövrün tələblərinə cavab verə bilmir, onun gördüyü işlər, əldə etdiyi nəticələr Azərbaycanın ümumi inkişafından çox geri qalır və Azərbaycanda elm, sadəcə, görüntü xarakteri daşıyır. Təbii ki, Elmlər Akademiyasının bu duruma düşməsində AMEA-nın keçmiş rəhbərliyini şiddətlə qınayıram. Hesab edirəm ki, elmin idarə olunmasında Akademiyanın keçmiş rəhbərliyi ciddi nöqsanlara yol verib. Biz Elmlər Akademiyasının gəncləşdirilməsi işinə başlayarkən vaxtilə çox ciddi nəticələr əldə etdik. Hər halda Akademiyada gənclərin stimullaşdırılması, onların həvəsləndirilməsi, elmə cəlb edilməsi, elmlə məşğul olması üçün müvafiq şəraitin yaradılması, eyni zamanda, dövlətin aidiyyəti qurumlarının bu işə səfərbər edilməsi ilə çox ciddi işlər gördük. Çox qısa müddətdə Azərbaycanda elmi gənclik hərəkatını formalaşdıra bildik. Amma sonrakı dönəmlərdə bu məsələdə Akademiyada hakimiyyəti ələ almış yaşlı nəslin nümayəndələrinin çox cılız qısqanclığının şahidi olduq. Əslində, müasir dünyada elmi prosesin nə olduğunu bilməyən insanların ucbatından AMEA öz tənəzzül dövrünü yaşamağa başladı. Təəssüflər olsun ki, Akademiyada daha çox görüntü xarakterli proseslərə start verildi, habuki, onlar şoudan başqa bir şey deyildi. Düşünürdük ki, bu görüntü, gec-tez, Azərbaycan elmini böyük bataqlığa çevirəcək. Elə də oldu. Hesab edirəm ki, Azərbaycan elminin son beş ili boşuna xərcləndi. Akademik Ramiz Mehdiyevin AMEA prezidenti seçilməsinə gəlincə, deyim ki, bu çox uğurlu bir təyinatdır və onun Akademiyaya rəhbər seçilməsi bu sistemdə uzun illər mövcud olan problemlərin aradan qaldırılmasına, həll edilməsinə səbəb olacaq. Ondan Azərbaycan elminin və alimlərinin gözləntiləri çoxdur. Onun uzun illər dövlət aparatının vacib fiqurlarından biri olması, dövlət işini yaxşı bilməsi, hər zaman Prezidentin həyata keçirdiyi islahatlara dəstək verməsi, eyni zamanda, Ramiz müəllimin həqiqi elm adamı olması bu qənaəti söyləməyə imkan verir ki, biz AMEA-nın həyatında ciddi yeniliklərin, islahatların şahidi olacağıq. Doğrudur, Ramiz Mehdiyev humanitar və ictimai elmlər sahəsində görkəmli mütəxəssisdir. Ramiz müəllimin bu sahədə xüsusilə prinsipial olduğunu, elmə obyektiv münasibət bəslədiyini hələ Administrasiya rəhbəri olduğu dövrdə də müşahidə etmişik. O, elmi sferada baş verənləri çox diqqətlə izləyib. Müasir Azərbaycan elminin rəhbərliyinə seçilən Ramiz müəllimin bu sahənin inkişafında öz sözünü deyəcəyinə böyük ümidlər bəsləyirik, ondan çox şey gözləyirik. Xatırladıram ki, bir neçə il əvvəl Ramiz Mehdiyevin çox maraqlı bir məqaləsi çap olunmuşdu. "İctimai və humanitar elmlər zamanın kontekstində" adlanan məqalə böyük əks-səda yaratmışdı. O bu məqaləndə humanitar və ictimai elmlər sahəsində görülməli olan işlərin ardıcıllığını çox mükəmməl şəkildə vermişdi və eyni zamanda, bu sahədə olan boşluqları, nöqsanları qeyd etmişdi. Həmin məqalədən sonra bu sahədəki narazılıqlar aradan qaldırıldı, həmçinin, bu sahədə yeni istiqamətlər müəyyənləşdirildi. Bu baxımdan məndə əminlik var ki, Akademiyadakı problemlər həll ediləcək".

İ.Orucov hesab edir ki, uzun müddət öz fikir və ideyaları ilə Azərbaycan elminə dəstək verən R.Mehdiyevin prezidentliyi dövründə AMEA-da çox işlər görüləcək və bu sistemdə indiyə qədər mövcud olan ciddi nöqsanların aradan qaldırılması reallaşacaq. İ.Orucov fikrincə, R.Mehdiyevin rəhbərliyi ilə Azərbaycan elmi tamamilə yeni dövrə qədəm qoyub: "Hesab edirəm ki, akademik R.Mehdiyevin rəhbərliyi dövründə AMEA-nın nüfuzu özünə qayıdacaq və bu qurum özünün yenidən intibah dövrünü yaşayacaq. Eyni zamanda, son 5-6 il ərzində bu sistemdəki nöqsanların aradan qaldırılmasına nail ola biləcəyik. Mən Ramiz müəllimin obyektivliyinin xüsusilə şahidi oldum ki, o, vaxtilə Ali Attestasiya Komissiyasında baş verən neqativ proseslərə biganə qalmadı və onunla bağlı ortaya çox sərt mövqe qoydu. Həmçinin, Azərbaycan elmində plagiatlıq halları ilə bağlı etirazını bildirdi. İşlənmiş və köhnəlmiş mövzuların yenidən işlənməsi, görüntü xarakterli elmi işlərin müdafiə edilməsi ilə bağlı ciddi mövqeyini göstərdi. Fikirləşirəm ki, onun rəhbərliyi dövründə Akademiyanın həyatında çox ciddi dönüşə nail olunacaq. Bu gün Akademiyada çox ciddi problemlər var ki, onlar öz həllini gözləyir. Hazırda AMEA-nın 11 min əməkdaşı var və onların böyük əksəriyyəti yaşlaşmış, pensiya yaşına çatmış insanlardır, onların çoxu heç işə də gəlmir. Baxmayaraq ki, onlar artıq pensiya alırlar, amma tutduqları vəzifələrdən ikiəlli yapışıblar, elmi vəzifələri zəbt ediblər. Bu da elmi əxlaqa uyğun gəlməyən amildir. Akademiyada institut direktorları var ki, 60 ilə yaxındır direktor vəzifəsi tuturlar. Bu nə dərəcədə doğrudur? 60 il bir elmi müəssisəyə rəhbər olasan və o elmi müəssisənin dünyanın elmi reytinqlərində adı olmaya, bu biabırçılıqdır. Bu adamlar bu vəzifələrdən niyə yapışıblar?"

***İlqar Orucov:** "Ramiz Mehdiyevin rəhbərliyi dövründə Akademiyada mövcud olan bütün nöqsanların, problemlərin kökündən həll ediləcəyinə böyük inam bəsləyirik"*



*"Azərbaycan elminin və alimlərinin gözləntiləri çoxdur"*

İ.Orucov qeyd etdi ki, AMEA-nın 11 min əməkdaşının böyük hissəsi yaşlı nəsildir və bu da Akademiya sistemində gəncləşmə prosesinin həyata keçirilməsini ləngidir. Onun sözlərinə görə, elmdə aktiv yaş dövrü təxminən 32-45 yaş arasındadır. Onun sözlərinə görə, elmdə ciddi nəticələrə həmin yaş dövrlərində nail olmaq olur. "AMEA institutlarında bir sıra direktorlar və şöbə müdirləri nəinki pensiya yaşlı insanlardır, hətta bir çoxu müxtəlif dövlət vəzifələrində işləmiş və həmin vəzifələrdə ləkəli adlar qazanmış adamlardır. Onlar elmə gəliblər və elmi-tədqiqat institutlarında fəaliyyət göstərirlər. AMEA "cərimə batalyonu" ola bilməzdi, bu qurum ömrünü illərlə elmə verən insanların məskəni olmalı idi. Amma təəssüf ki, bu, uzun müddət belə olmadı. Hesab edirəm ki, Ramiz müəllim bu problemin də həllinə nail olacaq və onun qətiyyəti nəticəsində Elmlər Akademiyasında gəncləşmə prosesi başlayacaq. Akademiyada çalışan 11 min əməkdaşın real attestasiyası keçirilsə, heç onların 2 min nəfəri bu sistemdə işləməyə layiq olmaz. O adamlar orada nə üçün saxlanmalıdır və onlara nə üçün dövlət büdcəsindən havayı vəsait verilməlidir? Vaxtı keçmiş, heç bir strateji əhəmiyyət kəsb etməyən tədqiqatlara pul ayrılmasına nə dərəcədə ehtiyac var? Əlbəttə, yoxdur. Elə institutlar var ki, bir-birini təkrarlayır. Hesab edirəm ki, onlarla da bağlı ölçü götürülməlidir. R.Mehdiyevin rəhbərliyi dövründə Akademiyada mövcud olan bütün nöqsanların, problemlərin kökündən həll ediləcəyinə böyük inam bəsləyirik" - deyə İ.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

**Son dövrlərdə dünya iqtisadiyyatında baş verən proseslər yeni böşranın baş verə biləcəyinə dair çoxsaylı xəbərdarlıqlar edilməsi ilə müşayiət edilməkdədir. Mümkün yeni böhranın dünya dövlətlərinə təsirinin də fərqli olacağı gözlənir. Böhranın isə istənilən halda baş verəcəyi, bunun hətta gələn il ola biləcəyi proqnozlaşdırılır.**

# İslahatların daha bir üstünlüyü - yeni dünya böhranına qarşı Azərbaycanın müqaviməti artır...



Beynəlxalq Valyuta Fondu məsələ ilə bağlı bildirir ki, elə bu il qlobal iqtisadiyyatın artımı 2008-2009-cu illərin maliyyə böhranından sonra ən aşağı həddə olacaq. Fondun ekspertləri gələn il dünya iqtisadiyyatında qlobal iqtisadi tənəzzül və yeni maliyyə çaxnaşmalarından narahatdır. Buna əsas səbəb isə Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi ilə bağlı vəziyyətdən çıxış yolunun tapılmaması və ticarət müharibələrinin davam etməsidir. Məşhur iqtisadçı analitik Con Kemp də bədbin proqnozlar verir: "Qlobal iqtisadiyyatın artım tempi 2008-ci ildəki maliyyə böhranından bəri ən aşağı səviyyəyə enib . Dünya iqtisadiyyatında tənəzzül risqi artır". Böyük Britaniya Mərkəzi Bankının keçmiş rəhbəri Mervin Kinq də dünyanın yeni iqtisadi və maliyyə böhranı ilə üzləşdiyini deyib. Onun sözlərinə görə, 2008-2009-cu illərdə baş verən qlobal iqtisadiyyatdakı xaos təkrarlana bilər. Kinq hesab edir ki, növbəti iqtisadi və maliyyə böhranı demokratik bazar sisteminin legitimliyini məhv edə bilər: "Maliyyə-kredit siyasətinin yeni ortodoksiyasına riayət edərək, bank sistemini etibarlı etdiyimizi iddia edərək bu böhrana doğru irəliləyirik". Qlobal iqtisadiyyatdakı qeyri-müəyyənliklər və tənəzzül ehtimalları artıq müxtəlif şirkətlərin birləşməsi, satın alınması ilə bağlı sövdələşmələri də azaldıb. Bu il sözügedən sövdələşmələrin ümumi dəyərinin 2,8 trilyon dollar, gələn il isə 2,1 trilyon dollar təşkil edəcəyi gözlənilir. Bu isə böhranın daha bir əlaməti sayılır.

ABŞ-ın "McKinsey" konsaltinq şirkətinin hazırladığı "Qlobal bankçılığın auditi hesabatı"ında isə bildirlir ki, yeni böhran bank sektorunu da sarsıdacaq. Qeyd edilir ki, dünyadakı bankların yarıdan çoxu qlobal iqtisadi azalmaya və böhrana həssasdır. Hesabat müəllifləri hesab edir ki, əksər banklar qlobal iqtisadiyyatdakı hər hansı azalma meyli qarşısında çətinlik yaşayır, gəlirlərinin artım tempi xərclərinin artım tempindən geri qalır. Dünya iqtisadiyyatını böhrana sürükləyən faktorlar sırasında Avropa İttifaqının rolu da vurğulanır. Hesab edilir ki, Avropa iqtisadiyyatı həm ABŞ, həm də Çin tərəfdən mümkün neqativ təsirlər altında böhrana düşə bilər. Bu sırada ABŞ-la Çin arasında müşahidə edilən ticarət müharibəsi də həlledici rol oynaya bilər.

Yaranmış vəziyyətdə bir çox ölkələr böhrana qarşı indidən hazırlıq görür. Məsələn, qonşu Rusiyada antiböhran tədbirləri hazırlanır, bununla bağlı ölkənin xarici borclarının azalması, Qərblə əməkdaşlığın digər dövlətlərlə əvəzlənməsi həyata keçirilir. Yeri gəlmişkən qeyd edək ki, bu xüsusda Rusiyanın hədəf kimi müəyyən etdiyi ölkələrdən biri də Azərbaycandır. Rus politoloq Aleksandr Karavayev də bildirir ki, postsovet məkanında inteqrasiya layihələri orbitində türkdilli ölkələr Rusiya üçün artıq həlledici rol oynayır: "Azərbaycanla da Rusiya bir neçə istiqamətdə qarşılıqlı fəaliyyət göstərir. Bir tərəfdən, MDB məkanında azad ticarət zonası çərçivəsində yarana biləcək maneələr daha sıx kooperasiya haqqında ikitərəfli sazişlər hesabına aradan qaldırılır. Digər tərəfdən, Azərbaycanın neft-kimya sahəsinə investisiyalar ilbəil tədricən turizm sahəsinə yönəldilir, ikitərəfli qarşılıqlı fəaliyyət zonası genişlənir. Bu o deməkdir ki, ticari-iqtisadi sahədə əməkdaşlıq MDB-nin azad ticarət zonası hüdudlarından kənara çıxır". Onun sözlərinə görə, bu həm Bakı, həm də Moskva üçün böyük üstünlüklər yaradır: "Biz müxtəlif inteqrasiya birliklərinin üzvləri olan üçüncü ölkələrdə azad rejimdə layihələr həyata keçirə bilərik. Azərbaycan üçtərəfli qarşılıqlı fəaliyyətdə özünü göstərən maraqlar kompleksindən yan keçməklə, məsələn, Qazaxıstan və ya Türkiyə kimi ölkələrin hər biri ilə iri layihələr həyata keçirə bilər. Rusiya üçün əsasən türkdilli ölkələrdən ibarət bir özək formalaşıb. Bu ölkələrin fəallığı postsovet inteqrasiyası istiqamətləri ilə müqayisədə qat-qat yüksəkdir. Məsələn, Qazaxıstanla qarşılıqlı fəaliyyət klassik Avrasiya inteqrasiyası çərçivəsində həyata keçirilir. Özbəkistan son illərdə Rusiya ilə ciddi yaxınlaşma nümayiş etdirir. Azərbaycan neytral müstəqil vəziyyətdə qalır, lakin Rusiya və üçüncü ölkələrlə qarşılıqlı fəaliyyətin imkanlarından istifadə edir. Transregional inteqrasiyanın üstünlüyü bundan ibarətdir. Sayı ilbəil artan ikitərəfli layihələrlə yanaşı, Rusiya üçün ikinci dərəcəli sayılan qarşılıqlı iqtisadi fəaliyyət regionları da mühüm rol oynayır. Rusiya Türkiyə ilə birlikdə neft-qaz ixracını nizamlayır, məsələn, Türkiyədə Azərbaycan investisiyaları hesabına inşa edilmiş STAR neftayırma zavodu kimi müəssisələrdə iş aparır. Bakını transmilli İpək Yolu kommunikasiyalarının mühüm elementi hesab edən Qazaxıstanda Azərbaycan layihələri həyata keçirilir. Özbəkistanda Azərbaycanın maraqları bu iki ölkə ilə müqayisədə hələlik çox deyil, lakin nizamlanmış münasibətlər və yaxşı perspektivlər var. Bütün bunlar Rusiyanın Şərqə, o cümlədən postsovet məkanındakı türkdilli ölkələrə meylinin üstünlüyünü izah edir".

Azərbaycan özü də yeni iqtisadi inkişaf strategiyası çərçivəsində mümkün yeni qlobal böhrandan ən az itki ilə çıxa biləcək ölkələr sırasında yer alır. Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının artıq uzun illərdir qlobal böhrana qarşı xeyli dayanıqlı olduğunu təcrübə sübut edib. Belə ki, hələ 2008-ci ildə dünya maliyyə böhranı ilə üzləşəndə Azərbaycan ən az zərər görən ölkələr sırasında idi. Üstəlik, bütün sahələrdə islahatlar davam edirdi. Son üç ildə yeni vüsət alan islahatlar Azərbaycanın dayanıqlıq imkanlarını daha da artırır. Azərbaycan indi iqtisadi cəhətdən daha müstəqil və perspektivli bir vəziyyətdədir. Onun iqtisadiyyatı şaxələnib, yeni inkişaf proqramları reallaşdırılır. Müxtəlif beynəlxalq layihələr həyata keçirən Azərbaycanın bu istiqamətdə də imkanları getdikcə artır. Ekspertlər bildirir ki, davam edən iqtisadi islahatlar və xarici iqtisadi strategiya Bakıya daha əlverişli mövqedə olmaq imkanı qazandırır.

***Tahir TAĞIYEV***

**Biz iqtisadi inkişafımızı qeyri-neft sektoru üzərində qurmalıyıq. Bunu Prezident İlham Əliyev Mikayıl Cabbarovu İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edərkən deyib. Bütövlükdə, ölkə başçısı yeni nazirlə görüşü zamanı bir neçə dəfə qeyri-neft sektorunun inkişaf etdirilməsinin vacibliyini önə çəkdi:**

# Azərbaycanın yeni strategiyası - postneft-qaz dövründə iqtisadiyyat qeyri-neft sektoru üzərində dayanacaq...

***Ruslan Atakişiyev:** "Sahibkarlıq subyektləri üçün alternativ maliyyə mənbələrinə çıxış imkanları genişləndirilməlidir"*



"İndiki dövrü mən şərti olaraq postneft dövrü adlandırardım. Ona görə yox ki, bizim neftimiz tükənir, əksinə, bizim ehtiyatlarımız kifayət qədər yüksəkdir, o cümlədən, qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrə bərabərdir. Yeni kontraktlar imzalanıb, kəşfiyyat işləri aparılır və neft-qaz sektorumuz bundan sonra da ölkəmizin həyatında önəmli rol oynayacaq. Ona görə mən indiki dövrü postneft-qaz dövrü adlandırıram ki, bizim siyasətimizdə bu sahə kənara qoyulmalıdır. Bu sahədə nə lazım idisə gördük. Ancaq biz iqtisadi inkişafımızı qeyri-neft sektoru üzərində qurmalıyıq və burada əlbəttə ki, aparıcı rol İqtisadiyyat Nazirliyinin üzərinə düşür".

Ölkə başçısı qeyd edib ki, doqquz ayda ümumdaxili məhsul 2,5 faiz artıb: "Amma qeyri-neft sektorunda 3,5 faiz. Hesab edirəm ki, bu, pis göstərici deyil. Ancaq bizi qane etmir. Düzdür, kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu, çox müsbət hallardır. Ancaq biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün bundan sonra da çox ciddi islahatlar aparılmalıdır".

Prezident İlham Əliyevin fikrincə, ümumiyyətlə, bizim iqtisadi inkişafımız bundan sonra da qeyri-neft sektoru hesabına davam etdirilməlidir: "Buna nail olmaq üçün son illər böyük işlər görülüb, sənaye zonaları yaradılıb, orada xüsusi vergi rejimi tətbiq olunur. Aqroparklar yaradılıb və orada da məhsuldarlıq daha yüksəkdir. Ancaq bütün bu işləri biz, ilk növbədə, biznesin inkişafı prizmasından həll etməliyik".

Görünən odur ki, ölkənin gələcəyi qeyri-neft sektorunun inkişafından asılı olacaq. Bu sahədə bir sıra işlər görülsə də, belə məlum oldu ki, görüləsi işlər hələ çoxdur. Bütövlükdə, Azərbaycanda qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək üçün hansı işlər görülməlidir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin rəhbəri Ruslan Atakişiyevin sözlərinə görə, qeyri-neft sektorunun inkişafı ilə bağlı islahatlar dərinləşdirilməlidir: "Qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı aparılan islahatların arzuolunan səviyyəyə çatması üçün bir sıra işlərin daha da dərinləşdirilməsinə ehtiyac var. Sahibkarların özlərinin fəaliyyəti ilə yanaşı, dövlət tərəfindən də bir sıra işlər görülməlidir. Birinci növbədə regionlarda yerli icra strukturlarının sahibkarlıq subyektlərinin fəaliyyətinə qarışmamaları tövsiyə olunur. İkincisi, idarəetmə qabiliyyəti zəif olan müəssisələrdə sahibkarların yaxşı menecerlə işləməsi vacibdir. Sahibkar özü təsisçi kimi qalsa da, yaxşı menecerləri işə cəlb etməlidir. Üçüncüsü, sahibkarlar arasında təcrübə mübadiləsi artırılmalıdır. Dördüncüsü, sahibkarlıq subyektləri üçün alternativ maliyyə mənbələrinə çıxış imkanları genişləndirilməlidir. Eləsi var maliyyə imkanları genişdir, amma bacarığı elə də yoxdur. Elə sahibkar da var ki, qabiliyyəti var, amma maliyyə imkanları məhduddur. Ona görə də bunlar arasında əlaqə qurulmalıdır. Beşincisi, sahibkarlıq subyektlərinin dövlət tenderlərində iştirakı genişləndirilməlidir. Bu tenderlər maksimum dərəcədə şəffaf həyata keçirilməlidir".

*"Bütün bu işlər kompleks şəkildə görülsə, o zaman qeyri-neft sektorunun inkişafında əsaslı dönüşə nail olmaq olar"*

R.Atakişiyev hesab edir ki, kiçik və orta sahibkarlığın inkişafı üçün sahibkarlıq subyektləri həm də dövlət alışlarında iştirak etməlidirlər: "Kadır məsələsinə xüsusi önəm verilməlidir. Təhsil sistemində sahibkarlıq sahəsinin öyrənilməsi yaxşı təşkil edilməlidir. Bölgələrdə kənd təsərrüfatının inkişafı üçün müvafiq infrastruktur yaradılmalıdır. Digər tərəfdən, sahibkarlar xarici ölkələrdə tərəfdaşlar tapmalıdırlar. Yaxşı olardı ki, bütün Azərbaycan sahibkarlarının birləşdiyi bir portal yaradılsın. Həmin portalda bütün yerli sahibkarlar haqqında məlumatlar öz əksini tapsın. Ən nəhayət, Rəqabət Məcəlləsini maksimum dərəcədə tez qəbul etmək lazımdır. Xarici investisiyanın qeyri-neft sektoruna cəlbi üçün Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünü sürətləndirmək lazımdır. Bununla belə, özəl investisiya fondları yaradılmalıdır. Bütün bu işlər kompleks şəkildə görülsə, o zaman qeyri-neft sektorunun inkişafında əsaslı dönüşə nail olmaq olar".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edib.**

# İqtisadi blokda bütün təşkilatlar vergi orqanları kimi əlavə 350 milyon manat fayda verə bilsəydi...

***Tahir Mirkişili:** "Vergilər, sosial sahədə əldə olunan nəticələr onu göstərdi ki, ölkəyə bağlı, vətənpərvər, müasir baxışlı kadrların köməyilə, bu ehtiyatlardan səmərəli istifadə etməklə böyük irəliləyiş əldə etmək mümkündür"*



Prezident Mikayıl Cabbarovla görüşən zaman bildirib ki, Azərbaycanda sahibkarlığın inkişafı üçün vergilər stimulverici rol oynayır və nəticələr də göz qabağındadır: "Bu il Vergilər Nazirliyi plandan əlavə təqribən 350 milyon manatdan çox vəsait toplayıb və əlbəttə ki, bu, şəffaflığın təzahürüdür. Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bu günə qədər olmamışdır. Dörd milyon iki yüz min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı təxminən iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz MDB məkanında birinci yerdəyik, amma orta pensiyanın səviyyəsinə görə üçüncü yerdəyik. Yəni bu, doğrudan da çox böyük sosial təşəbbüsdür. Əlbəttə, əgər bizim maliyyə imkanlarımız olmasaydı, biz bunu edə bilməzdik".

Qeyd olunduğu kimi, bu il plandan əlavə 350 milyon manatdan çox vəsait toplanıb. Vergi sahəsində görülən işlər öz müsbət axarında davam edir.

Maraqlıdır, iqtisadi sektora aid bütün dövlət qurumları öz fəaliyyətlərində belə dönüş yaratsaydılar, hansı daha böyük uğurlara imza atardılar?

Millət vəkili, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dövlət başçısı yeni İqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edərkən sahibkarlıq fəaliyyətinin inkişafına, bununla bağlı dövlət siyasətinə mane olan qüvvələrə qarşı sərt tədbirlərin görüləcəyini bəyan etdi: "Dövlət başçısı Mikayıl Cabbarovu yeni vəzifəyə təyin edərkən bildirib ki, ölkəmiz sürətli iqtisadi inkişaf üçün böyük ehtiyatlara sahibdir.

Vergilər, sosial sahədə əldə olunan nəticələr onu göstərdi ki, ölkəyə bağlı, vətənpərvər, müasir baxışlı kadrların köməyilə, bu ehtiyatlardan səmərəli istifadə etməklə böyük irəliləyiş əldə etmək mümkündür. Məhz bu səbəbdən də iqtisadi strukturlarda həm də struktur dəyişiklikləri aparılır.

**\İnanıram ki, cənab Prezidentin verdiyi tapşırıqların hər bir sahədə qətiyyətlə icra olunması həm ölkə iqtisadiyyatını sürətlə inkişaf etdirəcək, həm də insanların maddi rifah halını daha da yaxşılaşdıracaq".**

***Günel CƏLİLOVA***

# Eçmiədzinə 2700, İrəvana 2801 il yaş - erməni saxtakarlıqları baş alıb gedir

**Qondarma tarix yaratmaqda pərgar olan ermənilər uzun müddətdir İrəvan şəhərinin tarixini saxtalaşdırmaq sahəsində də işlər görürlər. Bundan başqa, onlar saxta yollarla hazırda dünya ermənilərinin dini mərkəzinə çevirdikləri Eçmiədzin kilsəsinin də tarixini "qədimləşdirmək" yolunu tutublar. Ötən il Ermənistanda İrəvan şəhərinin "2800 yaşı" qeyd edildi, bu il isə şəhərin "2801 yaşı"nı qeyd edirlər.**

Hətta İrəvanın meri Ayk Marutyan şəhərin "2801 yaşı" münasibətilə sakinləri təbrik edib.

Onu da vurğulayaq ki, 2007-ci ildə nəşr edilən "Bolşaya Rossiyskaya Ensiklopediya"nın 9-cu cildində İrəvan haqqında bunlar yazılıb: "17-ci əsr boyu İrəvanın bütün əhalisi müsəlmanlar olub. 1820-ci ildə İrəvanın əhalisi 11,5 min nəfər olub. 19-cu əsrin sonunda isə əhalinin sayı 29 min nəfərə çatıb. Bu say Rus İmperiyasının Osmanlı İmperiyası və İrandan ermənləri köçürməsi sayəsində formalaşıb".

Bu gün Ermənistanda İrəvanın tarixinin bu şəkildə saxtalaşdırılması, onun yaranma tarixinin təhrif edilmiş formada təqdim olunması bir kampaniyaya çevrilib.

Azərbaycan tarixçiləri isə qeyd edirlər ki, İrəvan qədim yox, orta əsrlərdə yaradılan bir şəhərdir.

Tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın qeyd etdiyinə görə, İrəvan şəhərinin yerləşdiyi ərazi müxtəlif zamanlarda Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, İlxanilər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar dövlətlərinin tərkibinə daxil olub. O bildirir ki, İrəvan şəhərinin bir mərkəz kimi sosial-iqtisadi inkişafı isə Çuxur-Səəd bəylərbəyliyi və İrəvan xanlığı dövrlərinə aiddir. "Orta əsrlər tarixi mənbələrində şəhərin adı Rəvan və İrəvan kimi çəkilir.

Erməni tarixçiləri 1950-ci ildə İrəvan şəhərinin cənub-şərqindəki Qanlı təpədə aparılan qazıntılar zamanı Urartu çarı I Argiştinin dövründə salınmış Erebuni (İripuni) qalasının qalıqlarının tapılmasından sonra İrəvan şəhərinin tarixini bununla bağladılar. Erebuni qalası yalnız hərbi-istehkam məqsədilə inşa edilmişdir və onun ətrafında heç vaxt şəhər infrastrukturu formalaşmamışdır. Əslində, urartuluların ermənilərə heç bir aidiyyəti olmadığı kimi, qədim Erebuni qalasının da indiki İrəvan şəhəri ilə nə məkan, nə də tarixi baxımdan bir əlaqəsi olmuşdur. Orta əsrlərdə artıq şəhər kimi formalaşan İrəvan yaşayış məntəqəsi ilə 1950-ci ildə arxeoloji qazıntılar zamanı üzə çıxan Erebuni qalası arasında xeyli məsafə olmuşdur. Yalnız XX əsrin ikinci yarısından sonra İrəvan şəhərinin ərazisi genişlənərək Erebuni qalasının yerləşdiyi Qanlı təpəni öz içərisinə almışdır. Urartululara aid mixi yazılardan aydın olur ki, e.ə. VIII əsrin birinci rübündə Ağrı vadisi (Araz çayının sol sahili və Arpaçayın aşağı axarı) urartulular tərəfindən işğal edilənədək həmin ərazi Aza xalqının ölkəsi adlanmışdır...".

O vurğulayır ki, İrəvanın Urartu çarı I Argişti tərəfindən e.ə. 782-ci ildə əsası qoyulan Erebuni (İrpuni) şəhəri ilə eyniləşdirilməsi tarixin saxtalaşdırılmasının bariz nümunəsidir.

İrəvanın adının "erməniсə danışan" Nuh peyğəmbərlə bağlanması da erməni tarixçilərinin yalan uydurmaqda necə mahir olmalarının göstəricisidir.

N.Mustafanın sözlərinə görə, məşhur türk səyyahcoğrafiyaşünası Övliya Çələbi İrəvanı yaşayış məntəqəsi kimi XV əsrin əvvəllərinə aid edir. "Onun yazdığına görə, hicri təqvimi ilə 810-cu ildə (1407-1408) Əmir Teymurun tacirlərindən Xacə xan Ləhicani adlı tacir çox münbit Rəvan torpağına qədəm qoymuş, öz ailə üzvləri ilə burada sakin olmuş və düyü əkini hesabına gündən-günə varlanaraq bu böyük kəndin əsasını qoymuşdur. Övliya Çələbi daha sonra əlavə edir ki, Səfəvilər dövlətinin başçısı Şah İsmayıl hicri 915-ci ildə (1509-1510) qala salınması barədə öz vəziri Rəvanqulu xana göstəriş vermiş, o da, öz növbəsində, 7 ilə qalanı tikdirərək adını "Rəvan" qoymuşdur. Bəzi tədqiqatçılar İrəvan şəhərinin və qalasının salınmasının tarixçəsi ilə bağlı Övliya Çələbinin yazdıqları ilə razılaşır, bəziləri isə şəhərin tarixinin daha qədim olması haqqında yazan digər müəlliflərı haqlı hesab edirlər. Fakt odur ki, Şah İsmayıl 1501-ci ildə İrəvan şəhərini fəth etdikdən sonra sərkərdəsi Rəvanqulu xana Zəngi çayının sahilində, strateji əhəmiyyətli yerdə qala tikdirməyi həvalə etmişdir. Rəvanqulu xan da qalanı 7 ilə tikdirərək başa çatdırmışdır.

Osmanlı və Səfəvi imperiyaları arasında gedən müharibələr nəticəsində İrəvan şəhəri 14 dəfə əldən-ələ keçmişdir. Hər dəfə də müəyyən dağıntılara məruz qalmış, sonradan yenidən bərpa edilmişdir. 1554-cü ildə Osmanlı qoşunları İrəvanı darmadağın edərək elə keçirmişdir. 1580-ci ildə Osmanlı vəziri Lələ Mustafa paşa yenidən İrəvanı işğal etmişdir.

Bir çox səyyah və tarixçilərin təsvir etdikləri İrəvan qalası köhnə qalanın yerində, Osmanlı işğalı dövründə Fərhad paşa tərəfindən 1582-1583-cü illərdə inşa edilmişdir. Uzunluğu 850 m, eni 790 m olan qala təqribən kvadrat formasında olub, 7 ha ərazini əhatə edirdi. İkiqat qala divarlarının hündürlüyü 10,5-12 m idi. Qalanın birqat divarı Zəngi çayının divarlarını yuduğu qayalıq üstündən keçirdi. Qalanın üç qapısı var idi: cənubda Təbriz qapısı, şimalda Şirvan qapısı (yaxud Meydan qapısı) və Körpü qapısı. 1679-cu ildə Meydan qapısı ilə Köhnə şəhər arasında Zəngi çayının üzərində Qırmızı körpü adlanan körpü salınmışdı..." - deyə N.Mustafa qeyd edir.

***Qasım Hacıyev:** "Ermənistan hökuməti İrəvana saxta, qondarma 2801 illik keçirməklə bir daha göstərir ki, saxtakarlıq, yalan onun dövlət siyasətidir"*



*"İrəvan xanlarından qalan bütün abidələri yox etdilər, onların izlərini sildilər..."*

1918-ci il mayın 28-də cənubi Qafqazda üç müstəqil dövlət - Azərbaycan, Gürcüstan, Ermənistan dövlətləri yarananda Azərbaycan Milli Şurası 29 may tarixli qərarı ilə İrəvan şəhərini ermənilərə paytaxt kimi güzəştə gedib. Lakin 1918-1920-ci illərdə mövcud olmuş daşnak hakimiyyəti dövründə İrəvan şəhərində azərbaycanlılara qarşı soyqırım, onlara məxsus maddi mədəniyyət abidələrinə qarşı isə vandalizm aksiyaları həyata keçirilib. Məscidlərə od vurulub, azərbaycanlıların evləri talan və zəbt edilmişdi.

Sovet hakimiyyəti illərində də azərbaycanlıların diskriminasiyası və deportasiyası rəsmi Ermənistanın siyasətinin tərkib hissəsi olub.

1924-cü ildə Aleksandr Tamanyanın layihəsi əsasında həyata keçirilən İrəvan şəhərinin rekonstruksiyası, əslində, azərbaycanlıların izini silməyə xidmət edirdi. Göy məsciddə İrəvan şəhər Tarix Muzeyi yerləşdirilmiş, Zal xan (Şəhər) məscidi Rəssamlar İttifaqının sərgi salonuna çevrilmiş, yeganə olaraq Dəmirbulaq məscidindən başqa qalan bütün məscidlər yerlə yeksan edilmişdi. Dəmirbulaq məscidi isə 1988-ci ilin martında ermeni vandalları tərəfindən yandırılmışdı. Sərdar sarayı, İrəvan qalasının divarları sökülərək daşlarından Sahil bulvarının salınmasında istifadə edilmişdi. Köhnə şəhər massivində azərbaycanlılar yaşayan məhəllələr sökülərək yerində parklar, kinoteatrlar, meydanlar salınmışdı.

N.Musatafa yazır ki, İrəvan şəhəri dünya paytaxtları arasında yeganə şəhərdir ki, onun qədimliyi ilə öyünüldüyü halda, orada mövcud olan tarixi-memarlıq abidələrinin yaşı 200 ildən artıq deyil. Çünki İrəvanda mövcud olmuş qədim tarixi-memarlıq abidələrinin hamısı azərbaycanlılara məxsus olduğuna görə ermənilər onların hamısını yer üzündən silmişlər. İrəvan şəhərinin adı isə indiyədək iki dəfə dəyişdirilib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev də "Bakı-Xəbər"ə bildirdi ki, İrəvanın yaşının 2801 kimi təqdim edilməsi növbəti erməni saxtakarlığıdır. O hesab edir ki, İrəvan şəhərinin salınması tarixi məlumdur və bu şəhər orta əsrlərdə salınıb. "Bir məsələni qeyd edim ki, hara erməni ayağı dəyirsə, hara erməni nəfəsi toxunursa, mütləq orada saxtalaşdırma baş verir. Ermənilər o qədər yalan uydurub yazırlar ki, bu yazıların sayı-hesabı yoxdur. Hətta onlar özlərindən əvvəl yazanların da yazılarını, fikirlərini təkzib etməyə cəhd edirlər. Digər tərəfdən, İrəvanın qədim şəhər olmadığını, Eçmiədzinin də qədimlərdən ermənilərə aid olmadığını bütün dünya tarixçiləri, arxeoloqları bilir. Sovetlər dövründə İrəvanın 2650 illik yubileyi ermənilər tərəfindən keçiriləndə də onlar bu rəqəmi meydana gətirməyə çox ciddi saxtakarlıq hesabına nail olmuşdular. Ermənilər hətta başqa yerlərdən gətirdikləri qədim eksponatları İrəvan yaxınlığında aparılan arxeoloji qazıntı yerlərində basdırırdılar. Həmin tədbirdə iştirak edən alimlərin hamısı danışırdı ki, ermənilər burada nə qədər iyrənc, saxtakar əməllər həyata keçiriblər. Amma təəssüflər olsun ki, Sovet dövründə xristian həmrəyliyi mövcud olduğundan, ermənilərin iç üzünü açmağa imkan vermirdilər. Amma indinin özündə də hər şey yazılır, çəkilir, deyilir, yenə də ermənilər bu saxtakarlıqlardan əl çəkmək istəmirlər. Onlar heç bir fakta söykənmədən, əsaslandırmadan İrəvanın Erebuni olduğunu elan edirlər, ona saxta tarix düzəldib yubileyini keçirirlər. Pyatrovski hətta ermənilərin bu əməllərini özünün yazdığı 14 səhifəlik məqaləsi ilə ifşa etdi. Halbuki, ermənilərin tarixini ondan çox yazan olmayıb, o, saxta yollarla ermənilərin tarixini şişirdib. "Van çarlığı" və digər əsərləri, böyük monoqrafiyaları ilə bu işi görüb. Pyatrovski ilə o vaxt görüşlərdə, İqrar Əliyevin yanında ona demişəm ki, siz ermənilərin olmayan tarixini yaradıb və onu göylərə qaldırmısınız. O zaman "saxta" sözünü demək çətin idi. Ermənilər rus emissarlarının və erməni tarixçilərinin iştirakı ilə orta əsr şəhəri olan və Rəvanqulu xanın tikdirdiyi İrəvan şəhərini saxta yollarla Erebuni etdilər, indi də onun qondarma 2801 illiyini qeyd edirlər. Əlbəttə, Ermənistan hökuməti İrəvana saxta, qondarma 2801 illik keçirməklə bir daha göstərir ki, saxtakarlıq, yalan onun dövlət siyasətidir".

Q.Hacıyev qeyd etdi ki, İrəvan şəhəri Rəvanqulu xanın dövründə salınmış, qala da onun tərəfindən inşa edilmiş qaladır, hər ikisi orta əsrə aiddir. "Üç-dörd gün bundan əvvəl İqdırda idim, İqdırla İrəvanın arası 16 kilometrdir. Biz gecə oradan İrəvana baxırdıq, gecə işıqlar görünür. İqdırla İrəvanın tarixi yaxınlığı da var. Yəni İrəvan çox uzaqda olmayan bir ərazidir, onların tarixi bir-birinə çox yaxındır. Qərbi Azərbaycan ərazisi Şimali-Şərqi Anadoluya qədər uzanıb gedirdi. Qərbi Azərbaycan təkcə indiki Ermənistanı deyil, böyük bir ərazini əhatə edirdi. O cümlədən də İrəvan şəhəri də onun tərkibində orta əsrlərin son dövrlərində tikilmiş şəhər və qala idi. Ermənilər o qalanı dağıtdılar, Sərdarabad qalasını məhv etdilər, İrəvan xanlarından qalan bütün abidələri yox etdilər, onların izlərini sildilər, məscidləri xaraba qoydular. Orada bir neçə məscid vardı və onların hamısının fotoşəkilləri vardı. İrəvanda ermənilər bircə məscid saxlayıblar, onu da utanıb çəkinmədən "fars-İran məscidi" adlandırırlar. İranlı qonşularımız da gedib o məscidin açılışında iştirak edirlər. Həm Şuşada, həm də İrəvanda erməni saxtakarlığı baş alıb gedir" - deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

№ 190 (4088) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

25 OKTYABR 2019-cu il


# Marsa uçacaq ilk astronavt qadın ola bilәr

**ABŞ-ın Aeronavtika vә Kosmik Tәdqiqatlar Milli Agentliyinin (NASA) rәhbәri Cim Braydenstayn bildirib ki, agentliyin Mars missiyası çәrçivәsindә qırmızı planetә uçacaq ilk şanslı astronavt qadın ola bilәr.**



Onun sözlәrinә görә, zәrif cinsin nümayәndәlәri bu sahәdә kişilәrdәn bir addım öndә olmalıdırlar. "AZӘRTAC" bildirir ki, oktyabrın 18-dә NASA-nın iki qadın astronavtının tarixdә ilk dәfә olaraq açıq kosmosa çıxması münasibәtilә mәtbuat konfransı keçirәn Braydenstaynın sözlәrinә görә, Marsın sәthinә enәcәk ilk astronavt da zәrif cinsin nümayәndәsi olmalıdır. O әlavә edib ki, hazırda NASA-nın Marsın sәthinә ilk insanın enmәsi ilә bağlı konkret planı var.

"Ayın sәthinә ikinci dәfә enmәk NASA üçün prioritet olsa da, 2030-cu ildә Marsa da bu cür missiya hәyata keçirilәcәk", -deyә agentliyin direktoru vurğulayıb. O әlavә edib ki, milyarder İlon Maskın "SpaceX" şirkәti dә ilk NASA astronavtlarını qırmızı planetә göndәrәcәk "Starship Mars" raketi üzәrindә işlәri davam etdirir. Cim Braydenstan deyib: "Әgәr mәnim 11 yaşlı qızım bu yolu seçsә, onda o qәdәr dә uzaq olmayan gәlәcәkdә Marsa uçacaq ilk qadın namizәdlәr arasında ola bilәr.

Onun sözlәrinә görә, Marsa uçacaq qadın ekipajının formalaşdırılmasına indidәn başlamaq vә hәvәsi olan kiçik qızları treninqlәrә cәlb etmәk olar. Eyni zamanda, 2024-cü ildә Ayın sәthinә göndәrilmәsi nәzәrdә tutulan "Artemis" missiyasının tәrkibindә dә qadın astronavt olacaq.

**NASA hәlә onun adını açıqlamasa da, ekipaj üzvlәrindәn birinin mütlәq zәrif cinsin nümayәndәsi olacağı artıq mәlumdur.**

## "Nar" fiziki mәhdudiyyәtli idmançılara dәstәk olur

**"Nar" aztәminatlı ailәlәrdәn olan gәnc boksçuların vә fiziki mәhdudiyyәtli idmançıların dünya miqyasında Azәrbaycanı tәmsil etmәsinә dәstәk olmaqda davam edir.**

Mobil operatorun dәstәk olduğu "Ümid" idman klubunun üzvü Böyük Britaniyanın paytaxtı Londonda keçirilәn paraüzgüçülük üzrә Dünya Çempionatında qәlәbә qazanıb. Belә ki, "Ümid" idman klubunun üzvü olan Roman Soley üzgüçülüyün sәrbәst, arxa üstә üzmә növlәrindә yarışaraq 3 medal qazanıb. Bununla da Roman Soley "Tokio 2020" Yay Paralimpiya Oyunlarına birbaşa 4 lisenziya әldә edib.

Xatırladaq ki, "Nar" "Ümid" idman klubunun üzvlәrinin Paralimpiya Oyunlarına lisenziya qazanması üçün Avropa vә dünya yarışlarına hazırlaşmasına öz töhfәsini verir. Layihә çәrçivәsindә klub idmançılarına lazım olan tәchizatı "Nar" tәmin edir.

Qeyd edәk ki, 2008-ci ildә yaradılmış "Ümid" idman klubu atletika, üzgüçülük, cüdo vә uşaq şahmatı idman növlәri üzrә ixtisaslaşıb. Bu müddәt әrzindә "Ümid" idman klubunda ölkә, Avropa vә dünya çempionları vә Olimpiya Oyunlarının finalçıları yetişib.

"Nar" peşәkar idmanla mәşğul olan gәnclәrin vә yeniyetmәlәrin, eyni zamanda, fiziki mәhdudiyyәtli idmançıların dünya miqyasında Azәrbaycanı tәmsil etmәsinә hәr zaman dәstәk olur.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әhalisinin 97,5 %-ni әhatә edir vә 8500-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## Elan

Şәki rayonu, Böyük Dәhnә kәnd sakini Abdulxalıqov Siyavuş Abdulxalıq oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 788 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Zunud kәnd sakini Sadıqova Zәnfirә İsmayıl qızının vә ailә üzvlәrinin adına verilmiş JN: 83 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Kәbirov Tabir Kәbiroviçin adına Qusar rayonu, Çubuqlu kәndindә yerlәşәn mәnzilin 03.04.1995-ci ildә verilmiş 17 nömrәli qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Kazımov Ruslan Vahid oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, İnşaatçılar prospekti 5 ünvanının qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Mirzәyev İsgәndәr Elşәn oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Yusifova Sitarә Elxan qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

**Elçin Mәmmәdli, Rәhman Mәmmәdov vә Rәfael İbadov yaxın dostları, Kәlbәcәrdәn olan Cahid Hüseynova anası Sveta müәllimәnin vәfatı ilә әlaqәdar üz vermiş kәdәrә qәlbәn şәrik olduqlarını bildirir vә dәrin hüznlә başsağlığı verir. Allah rәhmәt elәsin!**





**Qoç** - Yarımçıq qalmış işlәri başa vurun. Bu gün bir neçә tәklif ala bilәrsiniz. Aldanmayın, hәmin tәkliflәr ciddi deyil. Yaxın günlәrdә sayı çox olacaq ideyaların dәyәrlәndirilmәsinә ehtiyac duyulacağını bilin.



**Buğa** - Hәr şey plana uyğundur vә nizamı pozmamaq üçün yaşam axarına fәal müdaxilә etmәyin. Kollektiv vә ya sizinlә hәmfikir olan insanlar yeni işә başlamaq üçün tәkan verәcәklәr.



**Әkizlәr** - İşlә bağlı mәsәlәlәrin, o cümlәdәn çәtin problemlәrin hәlli üçün uğurlu gündür. İşgüzar intuisiyanız çox kәsәrli vә iti olacaq. Danışıqlar vә sövdәlәşmәlәr, müzakirә vә tәhlillәr uğurlu alınacaq.



**Xәrçәng** - Hisslәr vә hissiyat günüdür. İntuisiyanızı işә salın, yaşamınızdakı qәfil dәyişikliklәri anlamağa çalışın. Bu yeniliklәrin perspektivdә işlәrә tәsir miqyasını dәyәrlәndirmәyә cәhd göstәrin.



**Şir** - Sizin gününüzdür. Proseslәrin tempini siz müәyyәnlәşdirirsiniz. Yaxın әtrafınızdakı insanlar da o axına riayәt etmәk mәcburiyyәtindә qalırlar. İstәnilәn situasiyada aktiv hәrәkәt etmәk bacarığına malik olun.



**Qız** - Son vaxtlar işlәrinizә dәfәlәrlә müdaxilә edәn, planlarınızı pozmağa çalışan xoşagәlmәz insanla qarşılaşacaqsınız. Tәbii ki, belә görüş sizdә ruh yüksәkliyi yaratmayacaq. Günün ikinci yarısında problemlә qarşılaşa bilәrsiniz.



**Tәrәzi** - Hәyatınızda önәmli hadisә baş verir. Fәal olun, yeni ideyaları saf-çürük edәrәk konkret addımlar atın. Dәrhal hansısa mәkana yollanmaq vә mühüm söhbәt etmәklә bağlı intuisiyanız, sizә xәbәrdarlıq edirsә, planları dәyişin.



**Әqrәb** - Seçdiyiniz yolun nә qәdәr doğru olduğunu bu gün aydın hiss edәcәksiniz. Perspektivlәriniz üçün böyük önәm daşıya bilәcәk işlәrdә aktiv iştirak edin. Әks tәqdirdә bәdxahlarınızın başladığı intriqaya qatılmalı olacaqsınız.



**Oxatan** - Sadә gün deyil. Yeni işlәrә başlamaq, layihәyә start vermәk, müttәfiqlәr axtarmaq üçün düşәrli zaman deyil. Fәal çalışın, uzun-uzadı istirahәt etmәyin. İmiclә eksperimentlәr etmәyin. Allergik reaksiya riski var.



**Oğlaq** - Mәqsәdә aparan yolda sәd vә manеәlәr az olmayacaq. Amma sәbrli, tәmkinli davranaraq yaşam prinsiplәrinizә sәdaqәtli qalsanız, çәtinliklәri dәf edә bilәrsiniz. Yeni işlәr vә ya riskli әmәliyyatlarda iştirak maliyyә imkanlarınıza zәrbә vura bilәr.



**Dolça** - Mühüm mәsәlәlәrin hәlli üçün uğurlu gündür. Uzunmüddәtli planlar qurmaq, onların hәyata keçirilmәsinә başlamaq olar. Mәhsuldar vә sәmәrәli çalışın. Axşam saatlarında normal istirahәt edin.



**Balıqlar** - Günün maraqları, şәrtlәri vә qayğıları sizdәn aktiv, hәtta, hәddәn ziyadә aktiv davranış tәlәb edir. Sizi bir an da boş buraxmaq istәmirlәr: çox adama gәrәksiniz. Kimәsә yardım edәcәksinizsә vә ya artıq edibsinizsә, minnәtdarlıq gözlәmәyin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Böyük Britaniyada hava taksisi...

**Böyük Britaniyanın "Vertical Aerospace" startapı öz yeni hava taksisinin ilk sınaq uçuşunu nümayiş etdirib.**



"İctnews.az" bildirir ki, 6 vintlә tәchiz edilmiş "Seraph" adlandırılmış uçan aparat 250 kq-dәk yükü havaya qaldırmaq qabiliyyәtinә malikdir. Bundan başqa, hava taksisinin daxilindә sәrnişinlәr üçün 2, pilot üçün 1 yer nәzәrdә tutulub. "Seraph" elektrik batareyası ilә işlәyir vә istehsalçıların sözlәrinә görә, 800 km mәsafә qәt edә bilir. Bundan başqa, uçan aparat saatda 80 km-dәk sürәt toplaya bilәr.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.